*Redaktorlar:*

*Filologiya üzrə elmlər doktoru* — *Gülbəniz Babaxanlı*
*Əməkdar mədəniyyət işçisi*

*Sənətşünaslıq üzrə fəlsəfə doktoru* — *Ülkər Talıbzadə*
*Əməkdar mədəniyyət işçisi*

**"Azərbaycan Xalq Cümhuriyyəti dövründə romantik ədəbiyyat" (Respublika elmi konfransının materialları)**

**Bakı, "Elm və Təhsil", 2018, 96 səh.**

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş respublika elmi konfransının materiallarını əhatə edən topluda Azərbaycan alimlərinin, gənc tədqiqatçıların Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq və Üzeyir bəy Hacıbəylinin yaradıcılığı haqqında araşdırmaları nəşr olunmuşdur.

M $\frac{4603000000}{\text{N-98-2018}}$ Qrifli nəşr

© "Elm və təhsil", 2018

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olmas 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra



Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**3.**Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 may 2017-ci il.

**2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 yanvar 2018-ci il.



Akademik **İsa HƏBİBBƏYLİ**
*AMEA-nın vitse-prezidenti*

# MÜSTƏQİL DÖVLƏTÇİLİYİN DƏRKİ VƏ TƏNTƏNƏSİ

**"Azərbaycan Xalq Cümhuriyyəti ili" - müstəqil dövlətin gücü və qüdrətinin xalqla hakimiyyətin möhtəşəm birliyində olmasının siyasi bəyanatıdır**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması və 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi müstəqil Azərbaycan dövlətinin özünün milli azadlıq və tarixi cümhuriyyətçilik ənənələrinə verdiyi yüksək qiymətin ifadəsidir. Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının uzun əsrlər ərzində zaman-zaman zəngin dövlətçilik yolu keçməsinə baxmayaraq, 28 may 1918-ci il tarixdə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti xüsusi əhəmiyyətə malik mühüm tarixi hadisədir.

Prezident İlham Əliyevin böyük tarixi əhəmiyyətə malik sərəncamında deyildiyi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə müsəlman Şərqində ilk parlamentli respublikanın yaranması mənasında xalqımızın həyatında misilsiz hadisə baş vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizdə milli dövlətçiliyin böyük başlanğıcıdır. Bu, artıq uzaq-yaxın keçmişdəki kimi böyük imperiyaların tərkibində əsas faktora çevrilən Azərbaycanın yox, birbaşa xalqın iradəsi ilə meydana çıxan və ölkənin özü tərəfindən idarə olunan milli dövlətçilik nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasındakı nitqində Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki həmin fərqli xarakteri

siyasi cəhətdən dəqiq müəyyənləşdirilmişdir: "Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib".

Bu mənada XX əsrin əvvəllərində Azərbaycan xalqının dövlət müstəqilliyi qazanması ölkəmizin çoxəsrlik tarixinin ən şərəfli hadisəsidir. Bu, ilk cümhuriyyət tipli demokratik milli dövlət kimi bütün türk-müsəlman dünyasına örnək olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçiliyimizin və müstəqilliyimizin ilkin təməli və bünövrəsidir. Sovet hakimiyyətinin qurulması və 70 il fəaliyyət göstərməsi bütün məhdudiyyətlərinə və çətinliklərinə baxmayaraq, xalqımızın müstəqillik arzusunu söndürə bilməmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Sovet Respublikasına rəhbərlik etdiyi illərdə məqsədyönlü şəkildə həyata keçirdiyi milli özünüdərkə qayıdış və istiqlalçılıq tədbirləri xalqımızın milli oyanışında və yenidən müstəqil dövlətçiliyə hazırlanmasında mühüm rol oynamışdır.

Ulu öndərin hələ sovet hakimiyyətinin süqutundan 11 ay əvvəl, 17 noyabr 1990-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını ölkəmizin dövlət bayrağı kimi təsdiq etdirməsi tarixi-qəhrəmanlıq hadisəsidir. Həmçinin SSRİ adlanan bolşevik imperiyası dağılmamışdan qabaq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözlərini çıxarmağa nail olması dövlət müstəqilliyinə doğru qəti addımdır. Bir əsr ərzində ölkəmizdə 1991-ci ildə müstəqil dövlətçiliyin ikinci dəfə yenidən bərpa olunması milli dövlətçilik tariximizin ən parlaq mərhələsidir. Qısa müddət ərzində müstəqil Azərbaycan Respublikasının sürətlə və hərtərəfli şəkildə inkişaf etdirilməsi və beynəlxalq aləmdə böyük nüfuz qazanması dövlətimizin və



xalqımızın böyük şansı və xoşbəxtliyidir. Ümummilli liderin milli-dövlət müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan Respublikasına uğurla rəhbərlik etməsi, hər şeydən qabaq, dövlət müstəqiliyinin yenidən dağıdılması prosesinin aradan qaldırılmasına tam təminat vermiş və real böyük inkişafın geniş üfüqlərini açmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyev eyni zamanda ölkəmizdə klassik cümhuriyyətçilik ənənələrini müasir dövrün tələblərinə uyğun surətdə yaradıcı şəkildə inkişaf etdirərək müstəqil dövlətimizin yeni tarixi mərhələsinin idealları ilə bütövləşdirmişdir. Ölkə rəhbəri kimi Heydər Əliyevin müstəqil dövlətin siyasi ideologiyası səviyyəsində həyata keçirdiyi azərbaycançılıq təlimi özünün real mahiyyətində dövlətçilik baxımından varisliyi və müasirliyi üzvi surətdə birləşdirmişdir. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin ölkəmizdə geniş qeyd olunması və bu çərçivədə həmin dövrün mühüm dövlət sənədlərinin, parlament stenoqramlarının, cümhuriyyətçi siyasi, elmi, ədəbi-publisist irsin üzə çıxarılması, nəşr etdirilərək dövriyyəyə daxil edilməsi vəzifələrinin həyata keçirilməsi son nəticədə cümhuriyyət tarixinin sistemli şəkildə öyrənilməsinə və cəmiyyətdə bu tarixi mərhələnin obyektiv dərk olunmasına meydan açmışdır. Sovet hakimiyyəti illərindəki "Kommunist" qəzetinin, müstəqilliyin başlanğıc dövründəki "Həyat" qəzetinin əvəzinə rəsmi dövlət mətbuatı olaraq Xalq Cümhuriyyəti dövründəki "Azərbaycan" qəzetinin adının qaytarılması həm də parlamentin mətbu tribunası səviyyəsində müstəqil dövlətçilik və azərbaycançılıq ideyalarının geniş təbliğinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil Azərbaycan dövlətini böyük sürətlə və hərtərəfli şəkildə inkişaf etdirərək qüdrətli dövlətə çevirməsi cümhuriyyətin bayrağının daim ucalacağına təminat vermişdir. Ölkəmizin paytaxtı Bakı şəhərində möhtəşəm Bayraq meydanının salınması, Azərbaycanın bütün regionlarında Bayraq meydanlarının yaradılması Xalq Cümhuriyyəti dövründə elan olunan "Bir kərə yüksələn bayraq bir daha enməz" tezisinin idealdan reallığa

çevrilməsini təmin etmişdir. Bakının İstiqlaliyyət küçəsində İstiqlal abidəsinin ucaldılması ölkəmizdə milli istiqlal ideallarına yüksək ehtiramın dövlət səviyyəsindəki bəyannaməsidir. Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasını idarə edən dövlətlərdən biri səviyyəsinə yüksəldilməsi müstəqil dövlətçiliyimizin yüz illik tarixinin ən böyük hadisəsidir. Vaxtilə Azərbaycan Xalq Cümhuriyyətini tanımaq istəməyən beynəlxalq birlik Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Birləşmiş Millətlər Təşkilatının mötəbər kürsüsündən ev sahibi kimi danışmaq hüququ qazanmışdır. Bütün bunların sayəsində artıq Azərbaycan Respublikası dünyada müstəqil milli dövlətçilik ənənəsinə və təcrübəsinə malik olan və müstəqilliyini inkişaf etdirərək daha da möhkəmləndirən qüdrətli bir ölkə kimi qəbul olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi ölkəmizdə milli dövlətçiliyin tarixinə və ənənələrinə dövlət səviyyəsində yüksək ehtiramı ifadə edir. Bu, xalqımızın milli iftixar duyğusunun və vətənpərvərlik düşüncəsinin daha da dərinləşdirilməsinə doğru atılmış əhəmiyyətli addımdır.

"Azərbaycan Xalq Cümhuriyyəti ili" - Müstəqil Azərbaycanda milli dövlətçiliyin təntənəsi ili deməkdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli şəkildə inkişaf etdirilmiş Yeni Azərbaycan sözün həqiqi mənasında Cümhuriyyət bayramına və ilinə möhtəşəm töhfədir.

Vaxtilə böyük demokrat yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin "biz müsəlmanları məşğul edən tək bircə məsələ" kimi uğrunda mübarizə aparılmasını zəruri və şərəfli saydığı Cümhuriyyət idealının tam olaraq həyata keçirildiyi inkişaf etmiş müstəqil Azərbaycan milli dövlətimizin və xalqımızın dünya ictimaiyyəti qarşısında möhkəm və dönməz cümhuriyyətçilik iradəsinin mənalı və ibrətamiz hesabatıdır.

"Azərbaycan Xalq Cümhuriyyəti ili" - müstəqil dövlətin gücü və qüdrətinin xalqla hakimiyyətin möhtəşəm birliyində olmasının siyasi bəyanatıdır. Ötən 27 il ərzində müstəqil demokratik dövlət quruculuğunun parlaq nümunəsini göstərən Azərbaycan Respublikası Cümhuriyyət ilinin düşünülmüş tədbirlərlə ölkəmizdə müstəqil dövlətçilik idealını daha da inkişaf etdirib möhkəmləndirəcəkdir.



"Azərbaycan Xalq Cümhuriyyəti ili" - Azərbaycan Respublikasında dövlət müstəqilliyinin, milli dövlətçiliyin əbədi olmasının manifestidir.

Azərbaycan ziyalıları üçün "Xalq Cümhuriyyəti ili" ölkəmizdə cümhuriyyətçilik, milli dövlətçilik və müstəqillik, müasirləşmə təfəkkürünün daha əsaslı şəkildə yenidən dəyərləndirilib müasir cəmiyyətə təqdim edilməsi ili deməkdir. Azərbaycan Respublikasının elm və təhsil ordusu, ədəbiyyat və incəsənət işçiləri Prezident sərəncamının işığında müstəqil dövlətçilik tariximizin şanlı ənənələrini, ibrətamiz dərslərini və gələcək inkişaf yollarını real surətdə əks etdirən tədbirlərlə, elmi və bədii əsərlərlə Cümhuriyyət ilinin hesabatını verəcəklər.

Azərbaycan Milli Elmlər Akademiyasında Xalq Cümhuriyyətinin böyük elmi salnaməsinin yaradılması, dərsləri və təcrübəsinin yeni nəsillərə çatdırılması istiqamətində ciddi addımların atılmasına dair elmi proqramlar həyata keçiriləcəkdir. Əlbəttə, tarixi prosesləri yalnız ideallaşdırmaq yolu ilə deyil, mövcud reallıqları obyektiv şəkildə, uğurları və çətinlikləri ilə birlikdə sistemli elmi-nəzəri dəyərləndirmələr əsasında təqdim etməklə Xalq Cümhuriyyəti tarixinə kompleks elmi baxış meydana qoyulacaqdır.

Eyni zamanda, ölkəmizin elm adamları belə hesab edirlər ki, müstəqil dövlətçiliyin yeni tarixi mərhələsi olan Heydər Əliyev - İlham Əliyev epoxasının davamlı uğurlarının obyektiv elmi meyarlarla qiymətləndirilməsi və şərh olunması tam mənası ilə dövlət müstəqilliyinin əbədi olması haqqında mükəmməl bir ümumiləşdirilmiş təlimin elmi əsaslarını yaratmaq deməkdir.

Sözün həqiqi mənasında hazırkı tarixi inkişaf mərhələsində müstəqil Azərbaycan Respublikası yüz illik dövlət müstəqilliyinin möhtəşəm əbədiyyət modelidir. Ölkəmizin bütün vətəndaşları kimi, milli ziyalılıq üçün də Azərbaycan Xalq Cümhuriy-

yətinin varisi olan əbədiyyət qazanmış müstəqil dövlətçiliyimizin şərəfini yaşamaqdan və bu böyük ideala xidmət etməkdən uca və müqəddəs heç nə ola bilməz!

Xalqımızın aparıcı qüvvəsi olan ziyalılar, elm və təhsil ictimaiyyəti, ədəbiyyat və incəsənət xadimləri ölkəmizdə müstəqil dövlətimizin və milli dövlətçilik təfəkkürünün inkişafına xidmət edən ardıcıl dövlət siyasətinin böyük uğurla həyata keçirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını ifadə edirlər.

"Azərbaycan Xalq Cümhuriyyəti ili" ölkə ziyalılarının tədqiqat və təqdimat ili olması ilə bərabər, həm də ölkəmizdə müstəqil dövlətçiliyin yenidən dərki və təntənəsi ili olacaqdır.



Akademik **Teymur KƏRİMLİ**,
*AMEA Humanitar Elmlər Bölməsinin akademik-katibi*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ TÖHFƏ

Azərbaycanın qədim və milli zəminə bağlı olan qüvvətli dövlətçilik ənənələri vardır. Vətənimiz zaman-zaman işğallara, parçalanmalara məruz qalsa da, məhz bu ənənəyə söykəndiyindən Simurq quşu kimi öz külü üzərində ucalmağa müvəffəq olmuşdur. XX əsrin ilk onillikləri də Azərbaycan tarixində bu cür əlamətdar hadisələrlə yadda qalıb.

Tarixdən yaxşı bəllidir ki, Azərbaycan bütün İslam Şərqinə mayak ola biləcək qüvvə kimi onun irəli addımlamasına səbəb olan bir çox ilklərə imza atıb. Azərbaycan ziyalılarının maarifpərvər düşüncəsi türk-müsəlman aləmi üçün bir örnək, məktəb olub. Bu baxımdan müsəlman aləmində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətini məhz bu xalqın maarifpərvər, vətənpərvər ziyalılarının yaratması heç də təsadüfi deyil. Azərbaycan Xalq Cümhuriyyəti milli zəminə əsaslanaraq və tarixi keçmişimizdən süzülüb gələn ənənələrə - türkçülüyə, islamçılığa söykənməklə yanaşı, yarandığı dövr üçün mütərəqqi hesab edilən bir çox dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Bir siyasi subyekt çərçivəsindən çıxaraq milli ideal səviyyəsinə yüksəlməyi bacaran AXC-nin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi təşkilatlanma və sair sahələrdə həyata keçirdiyi işlər, apardığı islahatlar Azərbaycan tarixinin ən parlaq səhifələridir.

Coğrafi baxımdan tarixi Azərbaycan torpaqlarının yalnız şimalında yaranmış bu müstəqil dövlət ümumdünya azərbaycanlıları üçün özünüdərkin əsası idi. Bu dövlət əsas milli dəyərlərə söykənməklə yanaşı, dünyəvi qaydada idarə olunmalı idi. Bunun üçün də Azərbaycanda Müsəlman Şərqində ilk

parlamentli respublika yaradıldı. Çoxpartiyalı sistem, dinindən, irqindən, cinsi, milli və siyasi mənsubiyyətindən asılı olmayaraq, hər kəsə seçmək və seçilmək hüququ verən bir demokratik mühit cəmi 23 ay yaşayan bu dövlətin bir ideala çevrilməsinə səbəb oldu.

Məhz buna görə də 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini elan etdiyi zaman özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi. O zamandan üzü bəri dövlətimizin və onun başında duran millətpərvər, demokratik dəyərlərə önəm verən dövlət başçılarımızın ana siyasətinin özəyini Azərbaycan Xalq Cümhuriyyətinin elan etdiyi prinsiplər: milli dəyərlərə sadiqlik, dini tolerantlıq, gender bərabərliyi, söz və vicdan azadlığı kimi ali dəyərlərə hörmət təşkil edir.

Ümummilli lider Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin davamlı, məqsədyönlü daxili və xarici siyasəti sayəsində, Azərbaycan Respublikasında dövlətimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi üçün mühüm işlər həyata keçirilmişdir. Bu tədbirlər geniş anlamda götürsək, Azərbaycan Xalq Cümhuriyyətinin demokratik, humanist ənənələrinin davamı və müasir tələblər baxımından inkişafıdır.

Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin az müddət ərzində əldə etdiyi nailiyyətləri, onun tarixi, demokratik respublika fəallarının, mütərəqqi fikirli parlament üzvləri və hökümət nümayəndələrinin irsinin tədqiqi və təbliği Azərbaycan humanitar və ictimai elmləri qarşısında duran aktual məsələlərdəndir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Kitabşünaslıq və biblioqrafiyaşünaslıq" şöbəsində ərsəyə gələn "Azərbaycan Xalq Cümhuriyyəti – 100" adlı biblioqrafik göstərici bu zərurətdən meydana çıxan tədqiqatların resurs bazasıdır.

Adından da göründüyü kimi, alimlərimizin istifadəsinə təqdim edilən bu fundamental elmi biblioqrafiya Azərbaycan dövlətçilik tarixinin ən parlaq səhifələrindən birinə – müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq



Cümhuriyyətinə həsr olunub. Biblioqrafiyaya Azərbaycan Xalq Cümhuriyyətini doğuran tarixi şəraiti, Cümhuriyyət xadimlərinin həyat və mübarizəsini, Cümhuriyyət Parlamenti və Hökümətinin fəaliyyətini, dövlət quruculuğu, xarici siyasət, ictimai-siyasi, sosial-iqtisadi, mədəni-maarif həyatını, habelə Cümhuriyyətin süqutundan sonra istiqlal ideyalarını yaşadan milli hərəkat, siyasi mühacirət və s. məsələləri işıqlandıran materiallar əks olunub. Biblioqrafiya təkcə tədqiqatçılar və mütəxəssislər üçün deyil, habelə Azərbaycan tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün də nəzərdə tutulub.

Tərtibçisi Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmlər doktoru Aybəniz Əliyeva-Kəngərli olan "Azərbaycan Xalq Cümhuriyyəti – 100" adlı biblioqrafik göstəricinin Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda ərsəyə gəlməsi də təsadüfi deyil. Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti (Məclisi-müəssisan) 7 dekabr 1918-ci il tarixindən 27 aprel 1920-ci il tarixinədək vaxtı ilə Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbi üçün tikdirdiyi, bu gün dahi şairimiz Məhəmməd Füzulinin adını daşıyan Əlyazmalar İnstitutunun yerləşdiyi binada fəaliyyət göstərmişdir. Bu baxımdan Əlyazmalar İnstitutunun kitabşünas alimləri başda Aybəniz xanım olmaqla bu biblioqrafik göstəricini hazırlamağı özlərinə bir mənəvi borc bilmiş və üzərlərinə götürdükləri işin öhdəsindən uğurla gəlmişlər.

Görülən işin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq 32 çap vərəqi həcmində tərtib olunan elmi biblioqrafiyada Azərbaycan Respublikasının sələfi olan Azərbaycan Xalq Cümhuriyyəti haqqında yarandığı gündən bu günümüzə qədər (1918-2018-ci illər) işıq üzü görmüş materiallar tam əhatə olunur.

Qeyd edək ki, Azərbaycan dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinə verdiyi qiyməti əks etdirən və Cümhuriyyət haqqında mövcud olan digər sənədlər (kitablar, elmi-tədqiqat

əsərləri, dövri mətbuatda və məcmuələrdə dərc olunan məqalələr və s.) də biblioqrafiyaya daxil edilmişdir.

Bundan əlavə, biblioqrafiyada tarixi varislik və dövlətçilik prinsipləri əsas götürülərək Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu irsin yaşadılması və yeni, daha yüksək səviyyədə davam etdirilməsi yolunda apardığı məqsədyönlü fəaliyyət də geniş işıqlandırılmışdır.

Düşünürəm ki, AXC-nin 100 illiyinə töhfə olan bu biblioqrafik göstərici humanitar və ictimai elmimizin inkişafında öz rolunu oynayacaqdır.



*Fil.ü.e.d.***Gülbəniz BABAXANLI**
*AMEA Hüseyn Cavidin Ev Muzeyinin direktoru,*
*Əməkdar mədəniyyət işçisi*

## ƏHMƏD CAVADIN POEMA YARADICILIĞINDA REJİMLƏ PSİXOLOJİ MÜBARİZƏ

Çağdaş insana "homo sapiens" - düşünən insan epiteti ilə yanaşı, "oynayan insan" sifəti vermək istəyənlər də vardır. Şekspirin belə bir sözü məşhurdur ki, dünya teatr səhnəsi, insanlar isə aktyorlardır. Bu baxımdan Əhməd Cavadın poemalarında da oyun elementləri axtarıb tapmaq olar. Hər bir oyunda olduğu kimi, burada da müəyyən qaydalar, şərtiliklər var və qaydanı pozan oyunçular cəzalandırılır. Ancaq bu oyunun bir özəlliyi də var idi ki, oyunçu partnyorlardan biri eyni zamanda hakim idi və öz cığallığını cəzalandırmırdı. Elə buna görə də həqiqi oyundakı əyləncə elementi burada öz yerini faciə məqamına verirdi; bir qrup oyunçu başqa bir qrup oyunçunun taleyi ilə oynayarkən heç bir qayda-qanun gözləmirdi.

Bu səbəbdən idi ki, əllərində hakimiyyət toplamış "oyunçular", daha doğrusu, özünü oyunçu kimi qələmə verən bolşevik rejimi kiçicik bir xətaya görə dərhal "qırmızı vərəqə" göstərir, istədikləri "oyunçunu" həyatın teatr səhnəsindən uzaqlaşdırırdılar. Əhməd Cavadın bolşevik rejiminə qarşı psixoloji mübarizəsi məhz belə bir şəraitdə baş verirdi.

Bolşevik rejiminin ölkədə bərqərar etdiyi total qorxu psixologiyası bir çox sənətkarların mübarizədən əl çəkməsinə, sosializm ideyalarına "xidmət etməsinə" səbəb olmuşdu. Əhməd Cavad isə fürsət düşdükcə öz qorxusu üzərində yüksəlməyi, bu qorxudan müvəqqəti də olsa intiqam almağı bacarırdı. Bunu o, qorxmaz, qorxu hissinin nə olduğunu bilməyən və qorxunun, ölümün üzünə qəhqəhə çəkən romantik obrazlarının köməyilə edirdi. Bu baxımdan "Səsli qız" (1929) poeması zəngin material verir.

Yenilməz orduları məğlub edən, şir biləkli igidləri basıb-kəsən işğalçı bir şah zərif bir vətənpərvər qızın əlində zəbun olur, həyata əlvida deyir. Əlbəttə, bu bir nağıldır - xalqın xəyalı, şairin fantaziyasıdır. Ancaq "qızıl ordunun" işğalı altında olan, izzət-nəfsi tapdalanan şair öz zərif, lakin məğrur, qisasçı qəhrəmanı kimi düşməndən intiqam alır, ürəyini boşaldır; bu arzu və xəyallarının nə vaxtsa həqiqət olacağına, gücsüz bir "sərçənin qaniçən qurdu" məğlub edəcəyinə inanır. Necə ki, müqəddəs Məkkə üzərinə fillərlə hücuma keçmiş Əbrəhənin qoşununu zərif əbabil quşları məhv etmişdilər...

Poemada Əhməd Cavad öz düşməni, öz senzoru ilə qəribə bir psixoloji oyun oynayır: xalq deyimi ilə desək, "başını yarıb, ətəyinə qoz tökür". Əvvəlcə o, işğalçını ən murdar sifətlərlə damğalayır, sonra işğalın özünün siyasi bir aksiya kimi yaramazlığını və insanlığa yaraşmadığını nəzərə çatdırır:

Bütün bu ölkə xalqı
Çox ucuza satıldı.
Qaldı bütün kənarda
Can verənlər, ölənlər.
Satışı təsdiq etdi
Tox qarınla gülənlər.

Əlbəttə, bu misralarda Əhməd Cavadın 1920-ci il 27 aprel bolşevik işğalını nəzərdə tutduğunu anlamaq o qədər də çətin deyildir. Elə bu reallığın dərki nəticəsində şairin düşdüyü psixoloji vəziyyət, xəyallar tezliklə əriyib gedir, o, acı gerçəkliyə qayıdır. Sən demə, nəğməkar qız – Sara şahı öldürməklə ölkəsini heç də azad etməyə nail olmayıbmış.

"Azadlıq" eşidincə
Gülümsəmə belə şad;
Saranın məmləkəti
Köhnə mənada azad.



Orda hər şey asılı
Qaniçən bir kraldan.
Sor orda hürriyyəti
Baftali generaldan.

"Baftalı general" ifadəsi də senzorla psixoloji oyun elementlərindən biridir – yəni guya şair, Azərbaycanı XIX əsrin əvvəllərində işğal etmiş, çiynində zərli poqonlar gəzdirən çar generalını nəzərdə tutur.

Nəhayət, düşmənin gözü qarşısında "cızığından çıxmaq" oyununu tamamlayan bir detalı - bu dövrün başqa şairlərinin də nağıl, rəvayət və əfsanə mövzusunda qələmə aldıqları poemaların vacib detallarından biri olan bu günlə müqayisəni qeyd etmək lazımdır. Şair sanki poema boyu irəli sürdüyü qorxmaz və cəsarətli fikirləri bir növ malalayır, mənfur keçmişə lənətlər oxuyaraq bu günü və xoşbəxt gələcəyi "tərənnüm edir", sosializm quruluşunun üstünlüklərini və xalqlara "səadət" gətirməsini nəzərə çatdırır.

Gözəl qız, yaxşı vaxtda
Başladın gül açmağa,
Bu gün sənin yurdunda
Nə qul vardır, nə ağa.

Lakin poemaya yamaq kimi görünən bu hissəni atdıqda Əhməd Cavadın bolşevik rejiminə qarşı kəskin ittihamnamə yazdığı aydın olur. O, lirik-psixoloji passajların köməyilə bir çox ifşaedici fikirlərini irəli sürməyə nail olmuşdur. Əsərin aşağıdakı parçası bu baxımdan səciyyəvidir:

Düşmən şahın gəlişi
Qanuni bayram oldu.
Bir çox dərdli ürəklər
Qanlı sevinclə doldu.
Qəribə şeydir insan;

Al əlindən canını,
İstəyirsən ovucla
Hortlat axan qanını..?
Bir yırtıcı cəllad ol,
Doğra, parça-parça kəs...
Sonra çəkil uzaqdan
Məğrur baxışla bir bax
Görəcəksən, ölənlər
Baldırında bağırsaq,
Sənin qanlı əlində
Bitməz qüvvət var deyə,
Hazırdır bağışlayıb
Dadsız-dadsız gülməyə

Əhməd Cavadın bu psixoloji passajda işlətdiyi incə eyhamlardan biri də "qanuni bayram" ifadəsidir. Şübhəsiz ki, bu ifadə ilə şair işğalçı qızıl ordunun ölkəmizə soxulduğu 28 aprel tarixini nəzərdə tutur.

Bu cür eyhamlar, açıqlıq və gizlilik dərəcəsi fərqilə 1937-ci ilin bolşevik repressiyalarının qurbanı olmuş əksər Azərbaycan şairlərinin əsərlərində vardır. Özü də senzorlarla – düşmən oyunçularla aparılan bu psixoloji oyun-mübarizə sənətkarlara çox baha – onların həyatı bahasına başa gəlmişdir. Əhməd Cavad bu psixoloji oyundan çəkilmədi və həyatını qurban verdi, lakin o dövrdə həmin oyundan çəkilib həyatını qazanan şairlər də oldu...

Psixoloji təzyiq aparatlarından biri də bolşevik tənqidi idi. Onun tələbləri çox sadə idi: ya mənim dediyim kimi düşünməlisən, ya da məhv olmalısan. Xüsusən 1918-1920-ci illərdə ilk Azərbaycan Cümhuriyyəti dövründə fəal milli şairlər kimi tanınmış sənətkarlar daha çox gözümçıxdıya salınırdılar. Məsələn, 1934-cü ildə sonralar özü də repressiya qurbanı olmuş (taleyin istehzasına bax!) bolşevik tənqidçisi Əli Nazim Əhməd Cavadı belə xarakterizə edirdi: "Cavad Müsavatın rəsmi saray şairi olmaqla, öz sinif və firqəsinin Azərbaycan əməkçiləri



tərəfindən qovulmasını bütün Azərbaycan üçün "böyük bir matəm" hesab edir, hüdud xaricindəki mühacirlərə salamlar, şikayətlər göndərirdi. Öz burjua-mülkədar ruhunun boğulduğunu "Türk ruhunun" boğulması kimi göstərərək o, keçmiş ağalığı tərənnüm edir və bununla gənclik arasında yeni quruluş əleyhinə təbliğat aparır".

Beləliklə, Əhməd Cavadın poema yaradıcılığında lirik-psixoloji passajlar, eyhamlar, işarələr şəklində xalqa zorla calanmış eksperimental müstəmləkə rejiminə qarşı psixoloji mübarizənin şahidi oluruq. Bu mübarizə kimin qələbəsi ilə nəticələndi? Fiziki cəhətdən şübhəsiz ki, rejimin; ancaq mənəvi-psixoloji baxımdan patriot-şairlərimizin. Bu isə təbiidir, çünki Vətən torpağının, Vətən hissinin verdiyi mənəvi güc hər cür kobud fiziki qüvvədən yüksəkdir. Tarix bunu Əhməd Cavadın yaradıcılığı örnəyində bir daha sübuta yetirdi.

*Fil.ü.e.d.* **Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktor müavini*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLKİN QAYNAQLARDA

## CÜMHURİYYƏT DÖVRÜNÜN ƏDƏBİ KONSEPSİYASI (*M.Ə.Rəsulzadənin ədəbi görüşləri*)

Xalqların taleyində elə nadir şəxsiyyətlər var ki, onlar millətə azadlıq səadəti bəxş edir, milli-mənəvi yaddaşı itməyə qoymur, dövlətçilik hissi formalaşdırır, milli kimliyini tanıdır, tarixin düzgün yolunu nişan verir və bu missiyası ilə millətin tarixində adını əbədiləşdirir. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məmməd Əmin Rəsulzadə belə şəxsiyyət, sərhədsiz idrak sahibi idi. Bütün müsəlman Şərqində parlamentli demokratik respublika tipində ilk dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti çağdaş dövrümüzdə əsas demokratik normalar kimi qiymətləndirilən xalq hakimiyyəti, insan hüquqları, millətlərin bərabərlik hüququ, söz və yığıncaq azadlığı kimi ictimai dəyərləri elan edərək əməli surətdə həyata keçirilməsi, 23 ay ərzində dövlət strukturları və ordu yaradılması, Bakı Dövlət Universitetinin təsis edilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil sistemi milliləşdirilməsi, səkkiz saatlıq iş gününə keçid, vətəndaşlıq və Müəssislər Məclisinə seçkilər haqqında demokratik qanunların qəbul olunması, dövlətin ərazi bütövlüyünün təmin edilməsi kimi məsələlər Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Məmməd Əmin Rəsulzadənin canından çox sevdiyi Azərbaycan üçün göstərdiyi misilsiz xidmətlərdir.

Məlumdur ki, paralel olaraq M.Ə.Rəsulzadə intensiv şəkildə ədəbiyyatşünaslıqla məşğul olmuş və bu sahəyə də xüsusi diqqət yetirmişdir. Milli tariximizdə silinməz mövqeyə malik



unudulmaz mütəfəkkirin ədəbiyyatşünaslığa dair bir sıra maraqlı və orijinal fikirləri məlumdur. Ədəbiyyat çox gənc yaşlarından M.Ə.Rəsulzadənin maraq dairəsinin mərkəzində yer tutmuşdur. Klassik ədəbiyyata yaxşı bələd olması ilk məqalələrində gətirdiyi şeir parçalarından, müəllifi olduğu şeirlərdən aşikar görünür, hələ on doqquz yaşlı gənc ikən "Şərqi-Rus" qəzetində çap etdirdiyi məqalələrində fikrini qüvvətləndirmək məqsədilə şeir parçaları örnək gətirən M.Ə.Rəsulzadənin ilk şeiri 1906-cı ildə "Dəvət" qəzetində çap edilmişdir. "Növhə" adlanan bu şeirdə milli münaqişə və qırğınlar pislənilir, gənc şair fitnə-fəsadın başlıca mənbəyi kimi çar hökumətini ifşa etməyə cəhd edir.

Elə həmin ilin noyabr ayında "İrşad" qəzetində M.Ə.Rəsulzadənin ilk ədəbi resenziyası çap olunur. Abdullabəy Əfəndiyevin "Rüstəmin yuxusu" kitabı barədə yazan müəllif, çox gənc olmasına baxmayaraq, artıq bu ilk resenziyası ilə gələcəkdə bacarıqlı bir ədəbiyyatşünas olacağını vəd edir.

1907-ci ildə "Təkamül" qəzetində çap olunan yumoristik səhnəciklə M.Ə.Rəsulzadə həm də Avropa ədəbiyyatını dərindən bələd olduğunu nümayiş etdirmişdir. "Nagəhan bəla" adlanan səhnəcikdə M.Ə.Rəsulzadə dram janrının əsas elemetlərindən istifadə edərək əsəri qəbul olunmuş kanonlara müvafiq olaraq işləmişdir.

Tədqiqatlar göstərir ki, M.Ə.Rəsulzadə öz siyasi fikirlərini açıq şəkildə ifadə etmək üçün ədəbiyyatın bütün janrlarından geniş istifadə etməyi məharətlə bacarmışdır. 1907-ci ildə "Təkamül" qəzetində "Hər yandan" rubrikası altında verdiyi xəbəri bir xalq nağılı kimi başlanğıc formuluna malikdir: "Amma raviyani-əxbar və naqilani-acar, tutiyani-şəkkərşi-kəni-şirinköftar belə rəvayət edirlər ki, bir gün İran padşahı Məhəmmədəli şah oturub fikrə piçidə idi ki, necə eləsin bu millət məclisinin əlindən qurtarsın..."

Əlbəttə, bütün gənclik yazılarını "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı çoxşaxəli məruzəsi və "Azərbayçan şairi Nizami" kimi fundamental monoqrafiyası üçün hazırlıq mərhələsi hesab etmək olar. Doğrudur, "Əsrimizin Siyavuşu"

əsərində də siyasi görüşlərin şərhi üçün bədii ədəbiyyat materialından geniş şəkildə istifadə olunmuşdur. Lakin burada M.Ə.Rəsulzadə özünü bir ədəbiyyatşünas kimi deyil, Əbdülqasım Firdovsinin "Şahnamə"sinə dərindən vaqif olan bir birisi kimi göstərdiyindən bu əsəri təqdim olunan tədqiqata cəlb etməyi lazım görmədik.

İlk dəfə 1936-cı ildə Berlində, ondan iki il sonra isə 1938-ci ildə Varşavada çap olunmuş "Çağdaş Azərbaycan ədəbiyyatı" əsəri sonralar əlavələr və təshihlərlə 1950-ci ildə Ankarada işıq üzü görmüşdür. Əsərin başlanğıcından müəllifin məqsəd və məramı aydın görünür. "Bir neçə ay əvvəl Azərbaycan mədəni ənənələrindən bəhs edərkən bu mövzunun bir hissəsinə toxunmuşduq. Orada XIX yüzillikdə Azərbaycan ədəbiyyatının keçdiyi mərhələləri göstərdik, onun 1905-ci il rus inqilabından sonrakı inkişaf mərhələsindəki şəxsiyyətlərini qeyd etdik və nəhayət, 1918-ci ildə milli Azərbaycan Respublikasının qurulması və istiqlalının elanına qədər baş verən ədəbi hadisələr üzərində dayandıq."

Şübhəsiz ki, burada söhbət 1949-cu ildə Ankarada nəşr edilmiş "Azərbaycanın kültür gələnəkləri" adlı kitabından və onun əsasında duran məruzədən gedir. "Çağdaş Azərbaycan ədəbiyyatı" kitabı bilavasitə həmin əsərin davamı olduğundan, M.Ə.Rəsulzadəni bir ədəbiyyatşünas kimi xarakterizə edir. Müvafiq olaraq, bir ədəbiyyatşünas kimi M.Ə.Rəsulzadənin bilik və erudisiyasını aşkara çıxarmaq üçün adı çəkilən əsər və "Azərbaycan şairi Nizami" monoqrafiyası kifayət dərəcədə material verir.

Bir ədəbiyyatşünas kimi M.Ə.Rəsulzadədə diqqəti çəkən əsas cəhət - elmi obyektivlikdir. O öz opponentlərindən fərqli olaraq, kor-koranə inkarçılıq yolu tutmur, əksinə, sovet hakimiyyəti dövründə ədəbiyyatın əldə etdiyi nailiyyətləri göstərməyi lazım bilir. Buradaca qeyd edək ki, bu uğurların səbəbini dövlət quruluşunda yox, digər amillərdə axtaran M.Ə.Rəsulzadə yazır: "Lakin sovet işğal hökuməti milli Azərbaycan ruhunu çürütmək və burada "proletkult" deyilən mədəniyyət yaratmaq sahəsində



nail ola bilmir, bu iş üçün o özünə lazım olan vasitələrə malik deyildi. Ədəbiyyat əski ustadların əlində idi. Görünüşdə mövcud vəziyyətə uyğun olaraq, yeni hökumətin bəzən sərtliyini", bəzən də diplomatcasına yumşaqlığını dadan bu yazıçılar öz çətin və ağır işləri ilə məşğul olurdular."

Məmməd Əmin bu əski ustadların adlarını və əsərlərini sadalayaraq, onların yaradıcılığını bir-iki sərrast cümlə ilə xarakterizə edir. Əsas təhlillərinə dramaturgiyadan başlayan M.Ə.Rəsulzadə Cəlil Məmmədquluzadənin "Kamança", "Ananın kitabı", Süleyman Sani Axundzadənin "Laçın yuvası", Hüseyn Cavidin "Şeyx Sənan", "Topal Teymur", "Peyğəmbər", "Uçurum", "İblis", "Siyavuş"; Cəfər Cabbarlının "Vəfalı Səriyyə", "Aydın", "Oqtay", "Sevil", "Od gəlini", "Yaşar", Səməd Vurğunun "Vaqif" pyeslərinin adlarını çəkərək onları müxtəlif şəkildə səciyyələndirir.

İndiyə qədər öyrəndiyimiz, adət etdiyimiz, marksist ideologiya əsasında yazılmış ənənəvi Azərbaycan sovet ədəbiyyatşünaslığından fərqli olaraq M.Ə.Rəsulzadə tədqiqat obyekti olan pyeslərə yeni qiymətləndirmə bucağından yanaşır, indiyə qədər fərqinə varmadığımız bir sıra mətləbləri qabartmağa çalışır. Təbii ki, M.Ə.Rəsulzadə sovet rejiminin, qanlı Stalin diktaturasının günahsız qurbanı olan böyük Azərbaycan şairi, milli mənzum dramının banisi Hüseyn Cavidin yaradıcılığı üzərində daha çox dayanır, onun dramaturgiyasının bir sıra qaranlıq nöqtələri oxucunun gözləri qarşısında canlanır.

M.Ə.Rəsulzadənin fikrincə, həqiqi sənətkar istənilən rejim daxilində öz mütərəqqi ideyalarını xalqa çatdırmaq üçün vasitə və üsul tapa bilər. Hüseyn Cavidin "Peyğəmbər" pyesinin timsalında o əyani nümunəsini göstərərək yazır: "Bolşevizm şəraitində sənətkarlarımızın hansı üsullarla öz fikirlərini söyləməyə fürsət axtardığını göstərə bilmək üçün bu son dərəcə gözəl əsərdən ("Peyğəmbər"dən - A.Ə.K.) bəzi parçaları nümunə gətirək.

Peyğəmbərin zəmanədən şikayətindəki qaranlıq tablonu sovet tənqidçiləri, təbii ki, kapitalist və burjua aləminə aid

edirlər. Lakin və ya tamaşaçılar burada "kommunist cənnəti" içindəki reallıqları görürlər. Bir dəstə cahillərin ayaqları altında "İmansızlıqda həqiqət" və "Biliksizlikdə mərifət görənlər, onlara hakim olan xanlar onların özləri deyilmi? "Zülm və vəhşətlə qovrulub yanan" ölkə onların öz yurdlarıdır.

M.Ə.Rəsulzadə tədqiq etdiyi pyeslərin səhnə taleyi, onların sovet senzurası tərəfindən təhrif edilməsi barəsində də dəqiq məlumat verərək bunlardan müəyyən nəticələr çıxarır. Məhz bu məlumatlardan biz öyrənirik ki, Cəlil Məmmədquluzadənin "Kamança" pyesini uzun müddət səhnəyə yaxın qoymamışlar. "Anamın kitabı" pyesinin qadağan edilməsini isə M.Ə.Rəsulzadə belə izah edir: "Cəmiyyəti öz ana kökündən ayırmaq istəyən kommunistlərə, xalqı "Anamın kitabı"na çağıran bu əsər xoş gəlməmiş, onun üçün də oynanması uzun zaman qadağan edilmişdi."

Cəfər Cabbarlı dramaturgiyasının bədii qayəsini yüksək qiymətləndirən M.Ə.Rəsulzadə onun pyeslərindəki rəmzləri, hətta amansız senzor qayçısından sonra belə qalmış işarələri açıb göstərir. "Od gəlini" faciəsinin təhlili zamanı M.Ə.Rəsulzadənin gəldiyi nəticə budur ki, "tamaşaçılar üçün "ərəb" və "islam" sözləri yerinə "rus" və "kommunizm" sözlərini qoymaq mənanı aktuallaşdırmaq üçün kifayətdir."

M.Ə.Rəsulzadənin C.Cabbarlı dramaturgiyasında ədəbiyyatşünas gözü ilə müşahidə etdiyi maraqlı xüsusiyyətlərdən biri də müsbət qəhrəmanların qüdrət və qüvvətini göstərmək üçün mənfi tiplərin real, güclü şəkildə təsvir edilməsidir.

M.Ə. Rəsulzadənin S.Vurğunun "Vaqif" dramına verdiyi xarakteristika da maraq doğurur. Bu əsəri "ümumi sovet vətənpərvərliyinə rəvac verən pyes" adlandırdıqdan sonra, onun ən gözəl hissələrindən birini - Vaqiflə Qacarın deyişməsini başdan-ayağa gətirərək pyesə öz ikili münasibətini ifadə etmiş olur.

"Çağdaş Azərbaycan ədəbiyyatı" əsərindən o vaxtın bir sıra az tanınmış ədəbi nümunələri ilə də tanış oluruq ki, bu da tədqiqatı ədəbiyyat tariximiz üçün qiymətli mənbəyə çevirir. Buradan aydın olur ki, Sabit Rəhmanın "Vəfasız" adlı romanı



çap edilmiş, lakin sonradan kəskin tənqidə məruz qalmışdır. Buradan öyrənirik ki. H.Axundlunun "Kələfin ucu" romanı əvvəlcə sovet tənqidi tərəfindən yaxşı qarşılanaraq mükafata təqdim olunmuş, sonra isə əksinqilabi bir əsər kimi aradan götürülmüşdür.

M.Ə.Rəsulzadə ədəbi prosesi tədqiq etməyi bir məqsəd kimi qarşıya qoymamışdı. Məqsəd - ədəbi həyatın fonunda ictimai-siyasi prosesləri qiymətləndirmək idi. Fikirlərini yekunlaşdıran M.Ə.Rəsulzadə dəqiq terminlərlə əməliyyat apararaq yazır: "Böyük bir sovet milləti yaradılırdı. Çoxdilli sovet elləri bu millətin yüksək mənafeyinə xidmət edəcək, kiçik millətlər böyük rus milləti ilə birləşmək yolunda yüksələcəkdi."

Məhz bu məqsəd bəzən ictimai xadim M.Ə.Rəsulzadənin ədəbiyyatşünas M.Ə. Rəsulzadəyə üstün gəlməsinə səbəb olur və o, bədii cəhətdən zəif şeirləri ancaq daşıdığı ideyaya görə yüksək sənət nümunəsi kimi təqdim edir. Bunlara misal olaraq Cəfər Xəndanın, Gültəkinin, Sənanın, Yaycılı Kərimin şeirlərini göstərmək olar.

Qeyd etdiyimiz məqsəd M.Ə.Rəsulzadənin 1941-ci ildə bitirdiyi, lakin tam on ildən sonra nəşr etdirməyə müvəffəq olduğu "Azərbaycan şairi Nizami" əsərindən də qırmızı xətlə keçir. Lakin bu, həmin tədqiqatın elmi keyfiyyətlərini qətiyyən zəiflətmir, əksinə, elmi siyasi xüsusiyyətlər birləşərək vəhdət təşkil edir. "Nizami" monoqrafiyası da əvvəl, nəzərdən keçirdiyimiz əsər kimi orijinal elmi üslubda yazılmışdır və özündən öncəkiləri təkrar etmir. Əsas məqsəd - Nizamini türk oxucularına tanıtdırmaq olduğu üçün əsər həcmcə kiçik, lakin məlumat və məzmunca dərin yarımbaşlıqlara bölünür. Bu yarımbaşlıqlar Nizaminin həyat və yaradıcılığının ən müxtəlif problemlərini əhatə edir.

Monoqrafiya giriş, dörd bölüm və əlavələrdən ibarətdir. Girişdə M.Ə.Rəsulzadə Nizami sənətinin qaynaqlarını xülasə edir, şairin yaşadığı dövrün ümumi xarakteristikasını verir, Nizaminin – Azərbaycan şairi olduğunu elmi cəhətdən əsaslandıraraq yazır: "Bir əsəri milli edən, şəkillə birlikdə

mənanın da milli olmasıdır. Bu iki arasında uyğunluq olmadığı halda, bizə görə, əsəri milliləşdirən şəkildən daha çox mahiyyət, başqa sözlə, dildən daha çox mənadır.Yabançı dildə yazılmış bir əsər daşıdığı məna və ruha görə müəyyən şərtlər içində milli ola bilər."

Monoqrafiyanın əsas bölmələrində özünü Nizami irsinin bilicisi kimi göstərmiş M.Ə.Rəsulzadə həm də Nizami haqqında yazılmış əksər elmi-tədqiqat əsərlərinə bələdliyini də nümayiş etdirmişdir. M.Ə.Rəsulzadə bu tədqiqat əsərlərinin təsiri altına düşmədən yeri düşdükcə onlara tənqidi münasibətini bildirmişdir.

M.Ə.Rəsulzadənin bir çox fikirləri və əldə etdiyi nəticələr yenidir, orjinaldır. Şairin lirikasından bəhs edərkən onun qəzəllərinin süjetli olması, onlarda məntiqi bütövlüyün mövcudluğu haqqında fikir irəli sürən, Nizami sənətkarlığını yüksək qiymətləndirən M.Ə. Rəsulzadə "Çağının hərtərəfli alim və fazil şəxsiyyəti olan Nizami yaradıcılıq sənətində kimsəni örnək almayan orijinal bir şairdir; öz təbirincə, "zamanın heç bir gülünə ondan daha xoş səsli bir bülbül qonmamışdır."

Monoqrafiyada ən orijinal bölmələrdən biri Nizami mövzularının araşdırılmasına həsr edilmişdir. Bu bölmədə "Nizamidə türklük", "Nizamidə qadınlıq" kimi yarımbaşlıqları məntiqi bütövlüyü və elmi dərinliyi ilə xüsusi maraq doğurur. Ümumilikdə Nizami monoqrafiyası böyük Azərbaycan şairi haqqında tam və dolğun material verərək, onu gözəl sənətkar, dahi mütəfəkkir, böyük humanist kimi türk oxucularına tanıdırır.

M.Ə.Rəsulzadənin haqqında bəhs olunan ədəbiyyatşünaslıq əsərlərində daha geniş tədqiqini gözləyən orijinal xüsusiyyət mövcuddur, onları böyük bir tədqiqatın, monomental tədqiqatın mövzusudur, bu əsərlər Məmməd Əmin Rəsulzadəni istedadlı bir ədəbiyyatşünas kimi səciyyələndirməyə əsas verir.



## Ədəbiyyat:


1. Məhəmməd Əmin Rəsulzadə. Əsərləri. 5 cilddə. - Bakı, 2014.
2. Azərbaycan Milli Ensiklopediyası: Azərbaycan. - Bakı, 2007. – S. 884.
3. Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. - Bakı, Kitab Klubu MMC, 2013. - 504 s.
4. Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar. – Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2005.
5. Qurbanov Ş.. Məhəmməd Əmin Rəsulzadə. - Bakı, 2001.
6. Svyataçovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. – Bakı : Xəzər Universitəsi Nəşriyyatı, 2000.
7. Janet Afary. The Iranian Constitutional Revolution, 1906-1911. - Columbia University Press, 1996.

**Minaxanım ƏSƏDOVA**
*Tarix üzrə elmlər doktoru, professor*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURULMASINDA YUSİF ZİYA TALIBZADƏNİN ROLU

Y.Z.Talıbzadənin də səmərəli və çoxyönlü fəaliyyətdə olduğu XX əsrin ilk onillikləri, ümumilikdə Azərbaycan türklərinin tarixinə milli intibah dövrü kimi daxil olmuşdur. Lakin ümummilli tərəqqiyə xidmət etmiş bir sıra şəxsiyyətlərimiz zaman keçdikcə unudulmuş, sovet ideoloji təbliğatı onların həyat və fəaliyyətləri, yaradıcılıqları haqqında bəhs etməyə imkan verməmişdir. Azərbaycan və ümumiyyətlə, türk və islam dünyasının istiqlalı yolunda fədakarlıqlar göstərmiş, xalqımızın milli tərəqqisinə əvəzsiz töhfələr bəxş etmiş Y.Z.Talıbzadə də haqsız və qərəzli münasibətə tuş gəlmiş şəxsiyyətlərdəndir.

Ötən əsrin əvvəllərində milli mənlik şüurumuzun formalaşması türkləşmək, islamlaşmaq, müasirləşmək ideallarının başlıca qayələrə çevrilməsi ilə müşayiət olunurdu. O dövrdə ziyalıların böyük əksəriyyəti islam dininə bağlılığı milli tərəqqinin başlıca amili hesab edir, intibahı islam dinindən ayrı təsəvvür edə bilmirdilər. A.Y.Talıbzadə də həmin ziyalılar nəslinə mənsubdur. Lakin onun fəaliyyəti daha geniş sahələri əhatə edirdi. Y.Z.Talıbzadə çoxşaxəli fəaliyyətlə məşğul olub təkcə islam ideoloqu kimi məhdudlaşıb qalmırdı. O, din alimi olmaqla yanaşı, pedaqoq, publisist, dramaturq, tərcüməçi, eləcə də ictimai-siyasi və hərbi xadim kimi də XX əsr Azərbaycan ictimai, siyasi və mədəni həyatının üzdə olan nümayəndələrindən, seçilən şəxsiyyətlərindən idi.

Tədqiqatlarda daha çox belə bir ümumi qənaət vardır ki, XX əsrin əvvəlinin böyük istiqlal hərəkatı ədəbiyyatda və mətbuatda, böyük ədəbiyyatı isə milli və ideoloji mübarizənin



səngərində yaranmış, 1918-1920-ci illərin Cümhuriyyət hərəkatı əvvəlcə "ideya hərəkatı" kimi formalaşmışdır. "Mənəvi birlik və həmrəylik axtarışlarında ədəbi-ictimai fikir bir neçə mərhələdən keçdi, milli ideya, bəxtini islamçılıqda, turançılıqda sınadıqdan sonra, nəhayət, özünü azərbaycançılıqda tapmış oldu" [2, s. 3]. Əslində Azərbaycanda sadəcə bir milli ideya var ki, o da əsası XIX əsrdə milli maarifçilərimiz tərəfindən qoyulmuş azərbaycançılıq ideyasıdır. Avropa və Rusiyanın qabaqcıl universitetlərində və Şərqin dini mərkəzlərində təhsil almış Azərbaycan mütəfəkkirləri məhz bu ideyaya söykənərək Şərqdə ilk dünyəvi, demokratik cümhuriyyətin qurulmasına nail oldular. Azərbaycanda hələ 1918-ci ildə çoxpartiyalı parlamentə, müstəqil KİV-ə malik ilk müsəlman dövləti qurulmuşdur. Azərbaycanda ABŞ və bir sıra Avropa ölkələrindən qabaq qadınlara seçim hüququ verilmişdir. Şərqdə ilk baleti, ilk operanı, dünyəvilik ideyalarını, sekulyar dövlət anlayışını da İslam dünyasına Azərbaycan gətirmişdir.

Azərbaycan cəmiyyətinin belə bir inkişaf səviyyəsinə yüksəldilməsində müstəsna xidmətləri olan şəxsiyyətlərdən biri də Y.Z.Talıbzadə idi. Bütün digər fəaliyyətləri ilə yanaşı bunu da qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində Bakı xeyriyyə cəmiyyətlərinin və "Müsavat" Partiyasının Türkiyə ilə əlaqələrini saxlayan ən fəal şəxsiyyətlərdən biri məhz Y.Z.Talıbzadə olmuşdur. Onun Azərbaycan-Türkiyə əlaqələrinin yaradılması sahəsində gördüyü işlər mənbələrdə, o cümlədən ailə üzvlərinin xatirələrində təsdiqlənməkdədir. K.Talıbzadənin əlyazması halında olan [10] xatirə yazılarında bu barədə geniş məlumat verilmişdir. Həyat və fəaliyyətindən gətirdiyimiz nümunələr də təsdiqləyir ki, Türkiyədə hərbi təhsili, Balkan hərbində könüllü iştirakı, Birinci Cahan savaşında Osmanlı ordusu tərkibində Qafqaz cəbhəsindəki fədakarlıqları ilə bərabər Y.Z.Talıbzadə özünü Azərbaycanın ictimai-siyasi həyatından da təcrid etməmiş, dövrü mətbuat səhifələrində müxtəlif mövzulu məqalələrlə çıxış etmişdir.

Y.Z.Talıbzadənin sonrakı hərbi-siyasi fəaliyyəti Osmanlı ordusu və Azərbaycan könüllülərindən ibarət "İslam ordusu"nda davam edir. 1918-ci il iyun ayının 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" imzalanır. Həmin müqaviləni Türkiyə tərəfindən ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vehib Paşa, Azərbaycan tərəfindən xarici işlər naziri M.H.Hacınski və Milli Şuranın sədri M.Ə.Rəsulzadə imzalayırlar. Azərbaycan Respublikasının xarici dövlətlərə imzaladığı ilk müqavilə 11 maddədən ibarət idi. Müqavilənin Azərbaycan üçün çox mühüm olan dördüncü maddəsində göstərilirdi ki, "Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür" [9, s. 90].

Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi günlərdən 1918-ci ilin noyabrına qədər fəaliyyət göstərmiş Qafqaz İslam Ordusu Bakıda hakimiyyəti ələ keçirmiş S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi kütləvi soyqırımının qarşısını almaq və Azərbaycan xalqının müstəqilliyini qorumaq üçün Osmanlı Türkiyəsi və Azərbaycan silahlı qüvvələrindən təşkil edilmiş hərbi birlik idi. Azərbaycan xalqına qarşı daşnak-bolşevik qırğınının yaxınlaşması ilə bağlı olaraq Azərbaycan milli azadlıq hərəkatının liderləri yeganə çıxış yolunu Osmanlı Türkiyəsindən hərbi yardım almaqda görürdülər. Bu məqsədlə İstanbula xüsusi nümayəndə heyəti göndərilmişdi. Nağı Şeyxzamanlının rəhbərlik etdiyi həmin heyət Osmanlı sultanı, habelə baş nazir Tələtpaşa, hərbi nazir Ənvərpaşa ilə görüşərək, Azərbaycan xalqına hərbi yardım göstərilməsinə razılıq almışdı [3, s. 100]. Türkiyə tərəfinin planlarına görə, Azərbaycandakı silahlı qüvvələr türk hərbi mütəxəssislərinin rəhbərliyi ilə yenidən qurulmalı idi. Həmin məqsədlə Azərbaycana göndərilən hərbçilər qrupuna Ənvər paşanın qardaşı Nuru paşa rəhbərlik edirdi. 1918-ci il mayın



25-də Nuru Paşa və onunla birlikdə Azərbaycana gələn türk hərbçiləri Gəncədə qarşılandı. Nuru Paşa Azərbaycanda hərbi-siyasi vəziyyətin son dərəcə gərginləşdiyini, daşnak-bolşevik rejiminin Azərbaycanın bütün ərazisini öz hakimiyyəti altına keçirmək cəhdini, bu təhlükənin qarşısını alacaq milli hərbi qüvvələrin zəifliyini və onların formalaşdırılmasına xeyli vaxt lazım gələcəyini nəzərə alaraq, Osmanlı dövlətinin rəhbərliyi qarşısında tezliklə Azərbaycana hərbi qüvvə göndərmək məsələsini qaldırdı [3, s. 100].

Təbii ki, I Cahan hərbinin sonlarına doğru hərbi-siyasi vəziyyəti son dərəcə gərgin durumda olan Osmanlı dövlətinin Azərbaycana ordu göndərməsinin bir sıra müşkülatları vardı. Bu addım nəinki qarşı cəbhə dövlətlərinin, habelə müttəfiq Almaniyanın da müqaviməti ilə qarşılandı. Bunun üçün də Türkiyə hökuməti Osmanlı ordusu ilə Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradılması qərarını verir. Və bu işin, Azərbaycanı hər yöndən yaxşı tanıyan hərbçi və siyasətçilər olmadan uğurlu olacağını mümkünsüz hesab edən ordu rəhbərliyi, hər iki ölkənin ictimai-siyasi həyatında kifayət qədər nüfuzları olan və həmin dövrdə Türkiyədə çalışan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Axund Yusif Talıbzadə kimi şəxsiyyətlərin orduda təmsil olunmalarını zəruri və çox faydalı bilmişdi. Əhməd bəy Ağaoğlunun hərbi müşavir olduğu bu ordunun könüllülərdən ibarət Yardım alayının başında Yusif Ziya dururdu. Mühacir Azərbaycan ziyalılarından Əbdülvahab Yurdsevər bu haqda yazır: "Axund Yusifin türkçülüyündə və turançılığında kimsənin şübhəsi olmasa gərəkdir. Xarakter etibarı ilə Şaiqin tamamən xilafına olaraq fəal bir siyasət adamı və usanmaz bir mücadiləçi bulunan Axund Yusif çarlıq dövründə bir müddət Bakı real lisəsində türkcə və şəriət öyrətmənliyini yapdıqdan sonra, Balkan hərblərində Türkiyəyə gedərək, orduya könüllü qeyd olmuş və rəşadəti sayəsində çabuq irəliləyərək kəndi iradəsinə görə minbaşı rütbəsinə qədər yüksəlmişdir. İstiqlal dövrümüzdə Axund Yusif Azərbaycana dönərək könüllü yardım alayının komitəsini kəndi üzərinə

almışdı. Axund Yusif qayət hərəkətli və fəal bir mücadilə adamı idi. Hətta deyilə bilər ki, qabına sığmayan xarakterdə bir insandı. Eyni zamanda "Müsavat" partiyasının ən əski əzalarındandı" [7, s. 14].

Akademik K.Talıbzadə də bu faktları təsdiqləyərək yazır ki, Yusif Ziya "1918-ci ildə türk ordusu ilə bərabər Bakıya qayıdır. Demokratik Respublika dövründə "Müsavat" partiyasının orqanı "Azərbaycan"da və dövrün başqa mətbuat orqanlarında fəal iştirak edir, maarif-mədəniyyət mövzularına dair məqalələr nəşr etdirir. Bəzi siyasi məsələlərin həllində Demokratik Respublika rəhbərləri ilə razılaşmadığı üçün yenidən Türkiyəyə qayıdır" [4, s. 44].

1918-ci il iyun ayının əvvəllərində türk hərbi dəstələrinin Gəncə istiqamətinə hərəkəti başlamışdı. Lakin ordu rəhbərliyi Gəncəyə daha tez gəlmişdi. Halil Bal tarixi sənədlərə istinadən bildirir ki, Qafqaz İslam Ordusu Komandanı təyin edilən Nuri Paşa 25 may 1918 tarixində Gəncəyə daxil olmuşdu. Vəzifəsi – özü ilə bərabər gətirdiyi zabit heyətindən faydalanaraq Azərbaycanda Qafqaz İslam Ordusunu qurmaq və Bakını bolşeviklərdən qurtarmaq idi. Şimali Qafqaza yardım ancaq bundan sonra mümkün ola bilərdi. Nuru Paşa vaxt keçirmədən azərbaycanlı könüllülərdən Qafqaz İslam Ordusunun quruluşuna başlamışdı, amma nizamlı Türk qüvvələri gətirmədən Bakı məsələsinin həll edilməsinin mümkün olmadığı anlaşıldı [5, s. 50].

Beləliklə, Qafqaz İslam Ordusuna Türkiyədən bir-birinin ardınca yeni-yeni qüvvələr cəlb edilir. Türkiyə qoşunlarının bir qismi Qars və Aleksandroproldan keçib Qarakilsə-Dilican-Qazax və Ağstafa vasitəsilə, digər hissəsi isə Güney Azərbaycan-Qarabağ istiqamətindən hərəkət edirdi. Mürsəl Paşanın başçılıq etdiyi Türkiyə ordusunun ən yaxşı diviziyalarından olan 15-ci diviziya iyun ayının əvvəllərində Gəncəyə daxil oldu [9, s. 94]. Qeyd etdiyimiz kimi, bu vaxt artıq Türkiyənin Qafqazda olan hərbi hissələrinin yeni baş komandanı, Ənvər Paşanın qardaşı Nuru Paşa öz qərargahı ilə Gəncədə idi.



Deməli, Osmanlı ordusunun Qafqaza, o cümlədən Azərbaycana doğru hərəkəti hələ 4 iyun Batum müqaviləsindən öncə başlamışdı. "Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920" əsərində Tadeusz Svietochovski bu haqda yazır: "Nuri Paşa daha Osmanlı-Azerbaycan anlaşması imzalanmadan, 2 Haziranda, "Bağımsız, İslami Azerbaycan Cumhuriyeti kurulması talebi doğrultusunda" müslümanları Bolşevik idaresindən kurtarmak üzere askeri hareket başlatma emri almıştı" [6, s. 179].

Bakının alınmasınadək – 1918-ci il sentyabrın 15-ə qədər keçilmiş şərəfli döyüş yolunda Osmanlı əsgərləri ilə yanaşı, azərbaycanlı könüllülərin, o cümlədən könüllülərdən ibarət yardım alayının komandiri Y.Z.Talıbzadənin şücaəti şəksizdir. Əgər Balkan müharibəsində Azərbaycan türklərinin həmrəyliyini bildirən bəyannamələrin İstanbulda yayılması Yusif Ziyanın adı ilə bağlı idisə, Bakının alınması ərəfəsində onun da ön sıralarda döyüşdüyü Qafqaz İslam Ordusunu ruhlandıran, bu işin tarixi əhəmiyyətini türk əsgərlərinə aşılayan və bu şansın əldən verilməsi ilə onsuz da düşmən zülmü altında inləyən bacı və qardaşlarımızı hansı taleyin gözlədiyini gizlin müraciət və bəyannamələrdə yayanlardan biri də onun kiçik qardaşı Abdulla Şaiq idi. Əbdülvahab Yurdsevərin bir yazısında təsdiqlənir ki, "Ayrıca bir çox şeirlərində Abdulla Şaiqin fikri siması üzərində mərhum ağabəyisi Axund Yusif (Yusif Ziya) Talıbzadənin (bu məfkurəyə bağlılığını sərahətən isbat etmişdir) böyük təsiri olmuşdur" [7, s. 14].

Axund Yusifin kiçik qardaşı Abdulla Şaiqin bu dövrdə yazılmış əsərlərinin hamısı Azərbaycan türklərinin milli varlıqlarının təhlükəyə məruz qaldığı, ölüm-dirim savaşına qalxdıqları tarixi məqamlarla bağlıdır. "İki mücahid", "Vətənin yanıq səsi", "Arazdan Turana", "İntizar qarşısında" və bu səpkili digər əsərlərin çap olunduğu tarixlərin özü tədqiqatçılara çox şey deməkdədir. Bunlardan biri – "Neçin böylə gecikdin" şeirinin tarixçəsinə diqqət yetirsək, onun hansı bir tarixi şəraitdə yazılmış olduğu aydınlaşar. Abdulla Şaiq qardaşının komandanı olduğu

Qafqaz İslam Ordusuna həsr etdiyi şeirdə hisslərini belə ifadə edir:

Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, xırpalanmış,
Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri,
Yakılar da, yakar bütün qayğı vurmuş elləri.
Şu vətənin öksüzləri, gəlinləri, dulları,
Göz yaşıyla sulanmış həp keçdiyiniz yolları.
Yolunuzu bəkləməkdən bənizləri saralmış,
Heç gəlmədin. O şən, gülər ürəkləri qəm almış.
Sən gəlməsən, dolumsanmış ürəklər heç şad olmaz,
Sən gəlməsən, xərabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz,
Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.
Başqasını istəməm də, ey türk, çabuk sən gəl, sən,
Bəkləməkdən yoruldum, eh, iştə gec qaldın, nədən?
Yollarına daşmı qalanmış? Ya azğın quldurlar
Burakmıyor? Daş, dəmir, ya polad olsa da onlar,
Ürəyində şölənənən mətin, qızğın atəşlə
Yak onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala!
Xain, alçaq düşmənlərə qol gücünü həp göstər,
Aç yolları, çabuq gəl ki, qəlbim seni pək istər [1, s. 61].

A.Şaiqin bu şeiri – 1918-ci ilin 12 iyununda Gəncə ermənilərini itaət altına alan, 30 iyunda Göyçayı, 2 iyulda Salyanı, 5 iyulda Ağsunu, 10 iyulda Kürdəmiri, 19 iyulda Şamaxını, nəhayət 15 sentyabrda Bakını işğaldan azad etmiş Türk ordusunun intizarında olan xalqın həyəcanının tərcümanıdır. Ona görə də müəllif şeirə həm də "İntizar qarşısında" adı vermişdir. Bu günün özündə də belə bir şeir gözlərimiz önündə minlərlə türk qəhrəmanlarının şücaətini canlandırmaqdadır.

XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixində, onun milli mənlik şüurunun inkişafında, azadlıq mübarizəsinin



genişlənməsində, iqtisadi və intellektual potensialının artmasında xüsusi yer tutur. Milli həmrəylik bu dövrün ən səciyyəvi və təqdirəlayiq xüsusiyyəti idi. Y.Z.Talıbzadə də digər ziyalı həmfikirləri ilə birlikdə milli məsələlərdə fəal vətəndaş mövqeyi tutmuş, hər bir ədəbi və ictimai hadisəyə gecikmədən öz münasibətini bildirmişdir. Y.Z.Talıbzadənin söz azadlığına, fikir mübadiləsinə demokratik yanaşması onu bir çox din xadimlərindən fərqləndirirdi. Azərbaycanın istiqlal davasını ömrünün sonuna kimi özünə müqəddəs bir vəzifə bilmiş Y.Z.Talıbzadə öz fəaliyyətində təbliğatın bütün mümkün vasitələrindən istifadə etmişdir. İstər ictimai, siyasi təşkilat, istər kültürəl dərnəklər, istərsə də mətbu orqan və nəşrlər vasitəsilə olsun, onun əsas hədəfi Azərbaycanın istiqlala qovuşması, amal və məqsədləri dil, din, adət-ənənə, milli əxlaq yoluyla milli mədəniyyəti mühafizə, kültür və mədəni haqlarımızın bərpası ilə milli dövlətçiliyimizin işğal və istiladan qurtulması olmuşdur. Onun qabiliyyət və bacarığı, istedad və səriştəsi, intellekti, ruhu, mənəviyyatı çərçivəsində bu mübarizəyə yardımçı olmuşdur. Y.Z.Talıbzadə kimi mücahidlərin timsalında Azərbaycan türklərinin də milli istiqlal hərəkatında, aktiv olaraq savaş meydanlarında şücaət göstərmələri, milli və dini idealları uğrunda həyatlarını qurban vermələri, məslək, amal və əqidələri yolunda şəhid düşmələri bütövlükdə Türk Dünyasında misli görünməmiş ən böyük və nadir qəhrəmanlıq örnəyidir.

### Ədəbiyyat


1. Abdulla Ş. Arazdan Turana (Çapa hazırlayan, tərtibçi və qeydlərin müəllifi: Minaxanım Əsədli). Bakı: Nurlan, 2003, 264 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu). Bakı: Elm, 1998, 300 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: "Lider nəşriyyat", 2005, 472 s.

4. Talıbzadə K.A. Axund Yusif Talıbzadə /"Mədəniyyət dünyası", II buraxılış. Bakı: ADMİU, 2001, s. 42-47.
5. Bal H. Kuzey Kafkasyanın istiklalı və Türkiyenin askeri yardımı, 1917-1918 //"Kafkas araşdırmaları", İstanbul, 1997, c. 3, s. 29-91.
6. Swietochowski T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçesi: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988, 295 s.
7. Yurtsever A.. Abdulla Şaik vefat etti //"Azerbaycan" (Ankara), Azerbaycan Kültür Dernegi yayınları, 1959, sayı 4-5; "Mədəniyyət dünyası", II buraxılış. Bakı: ADMİU, 2001, s. 14-15.
8. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 3 (Talıbzadə Yusif Ziya barədə televiziya verilişinin mətni (Tərtib edən: Aybəniz Əliyeva).
9. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4 (İsa Həbibovun Kamal Talıbzadəyə məktubu (21 may, 1987-ci il, Naxçıvan şəhəri).
10. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4 (Kamal Talıbzadənin "Yusif Ziya Talıbzadə" başlıqlı məqaləsinin əlyazması).



Fil.ü.f.d. **Əzizağa NƏCƏFZADƏ**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, dosent*

## HÜRRİYYƏT AŞİQİ HÜSEYN CAVİD

Hər kəs yaxşı bilir ki, insan dünyaya göz açdığı ilk gündən ehtiyac ilə qarşılaşır. İnsanın körpə ikən bütün ehtiyaclarını valideynləri ödəyir, bunun nəticəsidir ki, hər bir kəs ana-ata qarşısında özünü borclu hiss edir. İnsan müəyyən yaş həddinə çatdıqdan sonra öz ehtiyaclarını özü ödəməli olur. Özünə yatacaq, qışda soyuqdan, yayda günəşdən qorunacaq məskən, rahat yuva arayır, yemək-içmək ehtiyacını qarşılamalı olur. İnsanın yemək, geyim, sığınacaq kimi ən sadə gündəlik tələbatları onu maddi aləmdən asılı edir. Maddi cəhətdən asılı olan insan isə heç zaman mənəvi cəhətdən tam azad ola bilməz.

Əsrlər boyu insanın əlyetməz arzusu olaraq qalan hər cür azadlıqlara sahib olma cəhdləri milli ədəbiyyatımızda da ümumşərq fəlsəfəsinin bir parçası kimi öz ifadəsini tapmışdır. Möhtəşəm düha sahibi, yaradıcılığında orta əsr Şərq fəlsəfəsi ilə müasir Qərb fəlsəfi düşüncə tərzini sintez etməyə müvəffəq olan, böyük şair və dramaturq Hüseyn Cavidin ədəbi irsində də hürriyyət – maddi və mənəvi aləmdən tam uzaqlaşaraq mütləq müstəqilliyi qazanmaq çabası qırmızı xətlə keçir. Hələ yaradıcılığının ilk illərində qələmə aldığı əsərlərində Cavid elə bir aləm arzu edir ki, orada bərabərlik, mütləq müstəqillik olsun. Fəlsəfi düşüncələrinin sonunda şairin son qərarı belə olur ki, insan yaşadığı bu aləmdə heç zaman tam müstəqillik əldə edə bilməz. O, "Hübuti-adəm" adlı şeirində belə bir qənaətə gəlir ki, bu aləm yalnız cənnətdə mümkün ola bilər. Dini rəvayətlərdən belə bir xəyali aləmin mövcudluğunu öyrənən şair cənnətdəki insanın azadlığını təsvir edərkən yazır:

Xəzansız bir baharıstani-cavid,
Ki solmaz orda əsla bərgi-ümid.

... Deyilmiş süs geyim onlara adət;
Fəqət geydikləri bir tül ki, iffət. (1, 23)

Göründüyü kimi, bu aləmdə insanın maddi rahatlığı üçün lazım olan hər şey var. Xəzansız əbədi bağ, ümid yarpaqlarının heç zaman solmadığı bir mühitdir bura. Lakin bu aləmdə insandan tələb olunan yalnız bir vacib əməl var, o da iffət sahibi olmasıdır. Bu mühiti onun üçün yaradandan razılıq duyması, xaliqini rəbbi kimi tanımasıdır. Yəni bu aləmdə də mənəvi müstəqillik nisbidir.

Dini ədəbiyyatdan da bəlli olduğu kimi, insanın tam müstəqil olmaması, yaradanın özünü ondan rəbbi kimi tanıma tələbi və hər birimizə xas olan Həvva nənəmizdən yadigar qalan qadağanı pozmaq həvəsi insanın bu azadlığını da əlindən alır. Yəni insan tam müstəqil ola bilməz. Çünki o, Allah deyil. Nisbi də olsa, əlində olan mənəvi azadlığının qədrini bilməyən şəxsin maddi asılılıq çərçivəsinə girməsi isə labüddür. Məhz buna görə də şair yazır:

Əmin ol ki, nerdə nəfs olmuşsa hakim;
Həqiqi eşqi məhv etmiş məzalim,
Kimin ülviysə ruhu, söz onundur,
Əsiri-nəfs olan daim zəbundur. (1, 25)

Şair demək istəyir ki, nəfsinin qulu olan adam azadlığın nə olduğunu anlaya bilməz. Çünki o, artıq quldur. Elə islam əqidəsinə görə də, yalnız nəfsin əsarətindən qurtulan, ona hakim çıxmağı bacaran insan əsl hürriyyətin nə olduğunu anlaya bilər.

Cavid yaradıcılığı boyu yaşadığı real aləmdə, güclülərin zəifləri əzdiyi, haqlarını tapdaladığı mühitdə insanın müstəqil olması üçün çarpışmalı olduğunu tələb kimi irəli sürmüş, azadlığı bəşər övladının əsas hədəfi kimi görmüşdür. O, əksər romantiklərdən, elə böyük müasiri Məhəmməd Hadidən fərqli olaraq, sabaha ümidlə yanaşır, aşağıdakı misralardan da görünür ki, o, gələcəyə nikbin baxır:



Cavid "Otuz yaşında" adlı şeirində yazır:
Bu gün sıxıntılı zənn etdiyin sürəkli həyat,
Həyati ailə bilsən yarın nasıl sevilər?
Çoluq-çocuq sənə ithaf edər də xoş nəğamat,
O dəm gözündə cahan pərdə-pərdə cilvələnər. (1, 33)

Göründüyü kimi, şair çəkdiyi sıxıntıdan insanların ümidsizliyə qapılmasını istəmir. Özünün, heç olmasa, övladlarının hürriyyəti üçün çarpışmasını insanlıq borcu kimi irəli sürür. O, gender bərabərliyi məsələsini dram yaradıcılığından öncə lirikasında qaldırır. Qadınların azadlığını cəmiyyət bütün üzvlərinin bərabərhüquqa sahib olması, ədalətin təntənəsi kimi qəbul edir. O, "Qadın" adlı şeirində zərif cinsin öz hüququ uğrunda mübarizə aparmalı olduğunu göstərir:

Bax, bax insan nə qədər aldanıyor?
Xayır, əsala məni sən dinləmə, dur!
"Ağla, həp ağla" dedim, çox yanılış.
Ağlamaqdan nə çıxar sanki? Çalış!
Oluyor iştə hüququn pamal,
Çalış, öyrən, ara, bul, haqqını al! (1, 40)

Şair Şərq qadınını özünə xas zülmə tabe olan mental təbiətindən əl çəkməyə çağırır, mübarizə yoluna qədəm qoyub yollar aramağı məsləhət görür. Ağlamağın zəiflik əlaməti olduğunu bəyan edir. İnsan iradəsinin zülmə sinə gərməklə möhkəmlənə biləcəyini deyir.

Azadlıq tələbini fərdlər səviyyəsindən milli məsələyə çevirməyi bacaran şair bir milli ideoloq kimi də çıxış etməyi bacarır. "Hali-əsəf iştimalımı təsvirdə bir ahi-məzlumanə" adlı şeirində şair Vətəni ənənəvi olaraq anaya bənzədir. Ananın öz övladları ilə fərəh duyduğu kimi, Vətənin də yalnız vətəndaşları ilə ucalmasını şeirin dili ilə oxucusuna çatdırır. Atasız qalan övladların birləşərək malı, mülki, iffəti əldən gedən analarının namusu uğrunda mübarizəyə qalxışdığı kimi Vətən övladlarını

da birlik olub əldən getməkdə olan el-obalarına sahib çıxmağa çağırır. Bu yolda əcnəbilərdən mədəd ummamağın ağılsızlıq olduğunu peyğəmbərcəsinə söyləyən şair vətənin rifahının elə onu vətəndaşlarının bu yoldakı qeyrət və çabasındadır asılı olduğunu deyir:

Biz, həqiqətən, zavallı yavrularız,
Bu vətən bir sevimli validədir.
Əbəs əğyardan vəfa umarız,
Babamız yox ki?! Böylə haldədir.
Bizə göz tikmiş ol vəfa kanı,
Madərin yavrusilədir şanı. (1, 51)

Qeyd edək ki, bəzi məqamlarda şairin vətəndaşlıq mövqeyi mübariz satiriklərimiz ilə üst-üstə düşür. Məsələn, şairin haqqında danışdığımız şeirindəki beytlərdən birində oxuyuruq:

İmdi qeyrət edərsə millətimiz,
Yenə övdət edər səadətimiz. (1, 52)

Ənənənin modernist üslubda davamçısı olan şair bu şeirdə klassik ədəbiyyatımızda daşlaşmış bədii ifadələrindən faydalanmaqla əski ədəbiyyatın ümidsizlik zəncirini sanki inkar edərək yazır:

Vardır ümid sübhi-iqbalə,
Şəbi-hicranə yoxmu dümbalə?! (1,52)

Cavid bir türkçü kimi türk ellərinin əsir edilməsinə göz yuma bilmir, maddi və mənəvi sərvətləri əlindən alınan türklərin mənəvi cəhətdən də əsarətə alınması təhlükəsini görür, dünyaya vaxtı ilə meydan oxuyan bir milləti oyatmaq ümidi ilə "Türk əsirləri" şeirində kinayəli şəkildə deyir:

Ey türk eli! Ey milyonlar ölkəsi!
Saqın, duyma nədir bu hal, bu dəhşət;



Titrətməsin səni bu qardaş səsi,
Korluq, sağırlıq o da bir səadət!.. (1,64)

Cavid də bir qəzəlində müasiri Abbas Səhhət kimi hər bir fərdə vətəndaşlıq borcunu belə anladır:

Olubdu qəlbimə hakim mənim məlali-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən.
Vətən məhəbbətini əmr edibdi peyğəmbər,
Xoş ol kəsə ona həmdəm olub vüsali-vətən... (1,66)

Nümunə gətirdiyimiz son misralar bir marş kimi səslənir, zəmanə gənclərində vətənpərvər duyğular oyatmaq qayəsi daşıyır. Şairin lirik əsərlərindən misal gətirdiyimiz şeir parçalarından da göründüyü kimi, Hüseyn Cavid həm fərdi, həm də ümumi müstəqillik – hürriyyət üçün mübarizənin əsas şərt olduğunu göstərir. Mütləq hürriyyət üçün insanın öz nəfsindən başlayaraq onun mənəvi azadlığına maneə ola biləcək hər bir qüvvəyə qarşı mübarizə aparmağı vacib sayır. Cavid "Hərb və fəlakət" şeirində bu azadlıq eşqinin, hürriyyət çabasının milli ideala çevrilməli olduğunu belə ifadə edir:

İdeal arxasınca qoş, çırpın!
İdealsız nicat ümidi məhal...
İttihad! İştə ən böyük ideal!
Səni qurtarsa, qurtarar bilirik,
Çünki birlikdədir fəqət dirlik!.. (1,73)

Hüseyn Cavidin şeirdə xalq ədəbiyyatından bəhrələnərək işlətdiyi son misra şairin hürriyyət aşiqi olmaqdan savayı, həmçinin bir ideoloq kimi də milli birlik tərəfdaşı olduğunu ortaya qoyur.

**Ədəbiyyat siayhısı:**

1. Cavid Hüseyn. Əsərləri, 4 cilddə, I cild,
Bakı: Yazıçı, 1982, 321 s.

Fil.ü.f.d. **Arzu HACIYEVA**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi*

## ABDULLA ŞAİQ VƏ CÜMHURİYYƏT

23 ay ömrü olan Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanda milli fikir, mədəniyyət, təhsil tarixində ən munis, ən pak və ləkəsiz səhifədir. İlk dəfə məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda siyasi müstəvidə olduğu kimi, bütün ictimai sahələr, o cümlədən mədəniyyət, ədəbiyyat, incəsənət milli yaddaşa kökləndi, milli dəyərlər, ana dili təbliğ olunmağa başlandı. Məhz bu dövrdə mədəniyyət heç bir kənar təsirlərə düşmədi. Onun bəzisi də üstqurumu da milli şüura əsaslandı. Şərqin ilk demokratik dövləti olan AXC milli ideologiyası, dövlətçilik prinsipləri baxımından milli təfəkkürün, tarixi özünüdərkin əsasını qoydu.

Azərbaycan Xalq Cümhuriyyətinin bərqərar olması təhsil, mədəniyyət, ədəbiyyat sahələrində çalışan ziyalılarımız üçün geniş imkanlar açdı. "Məhz bu dəfə (AXC dövrü nəzərdə tutulur – A.H.) "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbinin, tənqidi realizmin və XX əsr romantizminin bədii-fəlsəfi bünövrəsi zəminində ədəbiyyat öz mənəvi-fəlsəfi miqyasını, əhatə hüdudlarını və çərçivəsini artıq coğrafi yox... tarixi(!) məkanda dəyişir: vəhdətə və bütövlüyə qitələrlə qitələr arasında yox, daha çox epoxalarla epoxalar, köklər və zirvələr, mənşə ilə, əcdadla, etnosla müasir nəsil arasında nail olmağa çalışır. Yenidən (bu dəfə artıq yeni məzmunda və səviyyədə) daha çox Şərqlə, türklük və islam dünyası ilə bağlılıqda özünü tanıtmaq, ifadə və təsdiq etmək yolu ilə gedir" (Azərbaycan Xalq Cümhuriyyəti (Ədəbiyyat, dil, mədəniyyət quruculuğu), "Elm"n-tı, Bakı:-1998,səh.100)

Əslində real olan, lakin sonradan bir utopiya kimi xəyallarda yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin və onun



pantürkist damğası vurulmuş tərəfdaşlarının adı belə onu təqib edən sovet dönəmində yasaqlandı. Cümhuriyyət dövrü ədəbiyyatı, tarixi haqqında bildiklərimizə görə biz Azərbaycan mühacir tədqiqatçılarına və onlara hər zaman qucaq açan Osmanlı ədəbiyyatşünaslığına borcluyuq. Məhz onların araşdırmaları bizə Azərbaycan mücahidlərini tanıtdı, onların fəaliyyətləri barədə obyektiv, tərəfsiz və qərəzsiz faktları çatdırdı.

1917-ci ildən siyasi fəaliyyətə başlamış, həyatını bütünlüklə istiqlal hərəkatına həsr edərək, Azərbaycan Xalq Cümhuriyətinin qurulmasında yaxından iştirak etmiş Əbdülvahab Yurdsevər 1920-ci ildən sonra Müsavat partiyasının katibi və Milli Müqavimət Komitəsinin üzvü olmuşdur. 1923-cü ildə həbs edilərək, əvvəlcə şimali Qafqaza sürgün edilmiş, cəza müddəti bitdikdən az sonra isə Yaroslavl və Saratovda on bir illik sürgün həyatı yaşamışdır. Sürgündən sonra Ə.Yurdsevər bir müddət Daşkənddə qız məktəbində müəllimlik etmiş, daha sonra İrana, oradan isə Varşavaya mühacirət etmiş, əqidə və amalı uğrunda mübarizəsini mühacirətdə davam etdirmişdir. İkinci dünya müharibəsi başladıqdan sonra Türkiyəyə köçmüş Ə.Yurdsevər 1959-cu ildən ömrünün sonuna kimi İstanbulda Azərbaycan Milli Mərkəzinə rəhbərlik etmişdir. Mühacir alim Abdulla Şaiq şəxsiyyətini belə dəyərləndirir: "Xarakterinin uysallığı etibarilə hər növ siyasi həyatdan uzaq duran Şaiq məfkurə baxımından tamamən milliyyətçi, türkçü, hətta turançı bir münəvvərdi. Sovet hökumətinin ilk sənələrində qələmə almış bulunduğu mütəəddit dərs kitablarından belə bu türkçülüyü və turançılığı gözə çarpmaqdadır" (Ə.Yurdsevər. Abdulla Şaiq vəfat etdi. Vətən səsi, 14 mart, 1991)

Eyni taleyi – mühacir həyatını yaşamaq Mirzə Bala Məhəmmədzadəyə də nəsib olmuşdu. Azərbayycan Xalq Cümhuriyyəti elan edildikdən dərhal sonra M.B.Məmmədzadə "Müsavat" partiyası nəzdində yaradılmış "Gənclər cəmiyyəti"nin orqanı "Gənclər yurdu" (1918, iyun-noyabr) jurnalının redaktoru (T.F.Hacızadə ilə birgə) olmuşdur. Həmin dövrdə Mirzə Balanın Tiflisdə "İki inqilab arasında" adlı risaləsi də çap edilmişdi.

Kitabçada 1905-1917-ci illər arasında Azərbaycanda mətbuat, maarif, ədəbiyyat, teatr, din və qadın məsələləri tarixinə ümumi nəzər salınırdı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində stenoqrafçı işləyən M.B.Məmmədzadə 1919-cu ilin oktyabrında "Müsavat" partiyası Bakı Komitəsinin üzvü seçilmişdi. Həmin ilin sentyabrında Azərbaycan Dövlət Teatrında onun 1918-ci il mart soyqırımından bəhs edən "Bakı uğrunda mübarizə" pyesi tamaşaya qoyulmuşdu. O, 1924-cü ildə sovet siyasi rejimindən qaçaraq Cənubi Azərbaycana üz tutmuş, 1927-ci ildə İstanbula köçmüş, M.Ə.Rəsulzadənin vəfatından sonra Müsavat partiyasına və Azərbaycan Milli Mərkəzinə rəhbərlik etmişdir. Bolşevik siyasətinin məkrli mahiyyətini açan onlarla əsərin müəllifi olan Mirzə Balanın 1927-ci il İstanbulda çap olunmuş "Azərbaycan Misaki-Millisi" əsərində Şaiq yaradıcılığı haqqında təqdim etdiyi fikirləri maraqlıdır: "Azərbaycan Misaki-Millisinin belə ümumiləşməsində Azərbaycan mətbuat və ədəbiyyatının da böyük rolu olmuşdur. Şaiq, Müznib, Cavad onun, Azərbaycanın gözəlliyini, bayrağını, hürriyyətini idealizə etdilər. Qəzetlər onun haqqını və hüququnu, istiqlal və hürriyyətini müdafiə etdilər, ümumiləşdirdilər. Mühərrirlər, dramaturqlar istiqlal mübarizəsinə aid dramlar yazdılar. Azərbaycanın tarixi, ədəbiyyat tarixi, məktəb kitabları milli istiqlal ruhunda yazıldı. "Müntəxəbat", "Türk çələngi", "Türk ədəbyyatı" (A.Şaiqin dərslikləri – A.H.) və sairləri istiqlal dövründə, milli istiqlal ruhunda olaraq çıxdı"(A.Şaiqin 120 illiyi münasibətilə nəşr olunmuş "Mədəniyyət dünyası"(elmi məqalələr toplusu), Xaqan n-tı, Bakı:2001, səh.11-12).

Turançı şairlərimizdən olan A.Şaiq Cümhuriyyət illərinin əlverişli və sağlam ədəbi-mədəni mühitindən yararlandı. Romantik şairin azad ruhu pərvaz edə biləcəyi səmanı tapdı. Təsadüfi deyil ki, M.Ə.Rəsulzadə Cümhuriyyət dövrünün ədibləri sırasında A.Şaiqin də adını çəkir: "Milli Azərbaycan Respublikasının qurulduğu 1917-ci və 1918-ci illərdə Azərbaycan xalqı tarixinin ən həyəcanlı günlərini yaşayırdı. Ədəbiyyat bu həyəcana tərcüman olur, milli istiqlal günlərinə yaxınlaşmanın



şövq və sevinci içində yaşayır, böyük ümidini bütün həssaslığı ilə tərənnüm edirdi... Az zamanda bir çox ədəbi məclislər açılır və jurnallar çap edilir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq və başqaları bir çox yeni əsərlər nəşr edirlər".

Məlumdur ki, hər bir dövrün ideologiyası dövrün ədəbiyyatında, ədəbiyyatşünaslığında əks olunur. Bu mübadilə bəzən də məcburiyyətdən doğur. Cümhuriyyət ədəbiyyatı isə siyasi idealı könüllü şəkildə, sevə-sevə vəsf edərək dəstəklədi. Ədəbiyyat, mədəniyyət kimi ictimai sahələrin siyasi müstəviyə pozitiv müdaxiləsi ilə müşayiət olunan "Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və teatrı olmuşdur. Dövrün mətbuatı mədəniyyətin və elmin bütün sahələrində başlanan sosial-mənəvi intibahın pafosu ilə aşılanmışdır. Tədqiqat göstərir ki, hətta ay da, ulduz da rəmz və obraz kimi rəsmiləşən milli simvolikaya – üç rəngli bayrağa və gerbə poeziyadan, romantik nəsrdən və inqilabi publisistikadan keçərək gəlmişdir"(Azərbaycan Xalq Cümhuriyyəti (Ədəbiyyat, dil, mədəniyyət quruculuğu), Elm n-tı, Bakı:1998, səh. 105).

Siyasət adamı olmayan Şaiq mövqeyini cəmiyyətə, hər zaman ədəbi yaradıcılığı və ictimai fəaliyyəti ilə təqdim edirdi. A.Şaiq turançı bir şairdir. Bunu biz onun ədəbi irsindən, əsərlərində sıx-sıx barındığı türk simvolikasından, tərtib etdiyi dərsliklərə daxil etdiyi materiallardan aydın şəkildə görürük. Yaradıcılığının birinci mərhələsində, hətta uşaqlar üçün yazdığı əsərlərində belə, A.Şaiq irsinin sətiraltı kontekstini Turan obrazının vəsfi təşkil edirdi. "Arazdan Turana", "İki mücahid", "Vətənin yanıq səsi", "Marş", "Neçin böylə gecikdin?", "Yeni ay doğarkən" şeirləri Şaiqin bu dövr yaradıcılığının məhsulu olmaqla onun türkçülük ideologiyasına münasibətini bariz şəkildə əks etdirdi.

Qızıl alma – vahid, mənəvi, bölünməz Turan ideyası şairin əsərlərinin əsas leytmotivi idi. Turan yurdu, Elxan ordusu, Qızıl alma, doqquz tuğlu bayraq, tambura A.Şaiqin türkçülük simvolikasından bədii ədəbiyyata gətirdiyi milli elementlərdir. A.Şaiq türklərin tarixinə, həyat tərzinə, məişətinə aid xırda bir

detalı da sevə-sevə, milli təəssübkeşliklə təqdim edir. Bütün turançılar kimi, Şaiq də bir gün bütün türklərin vahid mənəvi məkanda olacaqlarına, birləşəcəklərinə inanır. 1918-ci ildə "Açıq söz" qəzetində nəşr etdirdiyi "Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a ithaf" şeirində Şaiq yazır:

Dalğalanır üstümdə şanlı Turan bayrağı,
Alovlanır qəlbimdə "Ərgənəkon" ocağı.
Haydı, yola çıxalım, haqsızlığı yıxalım,
Turanda gün doğunca zülmətlə çarpışalım.
Arş irəli, irəlidə cənnət kibi cahan var,

Günəş orda həp doğar, səadət orda parlar. ("Arazdan Turana", Nurlan n-tı, Bakı:2003, səh.60)

İlk dəfə "İstiqlal" qəzetinin 4 fevral 1918-ci ildə, daha sonra "Türk çələngi" dərsliyində çap etdirdiyi "Vətənin yanıq səsi" şeirini şair rus-erməni şovinistlərinin Azərbaycanda törətdiyi fitnə-fəsadlara etiraz olaraq qələmə almışdı. Şaiq bilirdi ki, türkün türkdən başqa dostu yoxdur. Buna görə də türk qardaşlarını yardıma səsləyirdi.

Uca, qarlı dağlarının başından
Altaylara bakar, bakar, durardım.
Çəmənindən, çölündən, dağ-daşından
Qızğın ürəklə sizləri sorardım.
Qısqanırdım sizi hər bir toprağa,
Zira sizdə vətən eşqi var idi.
Bakdıqca o doqquz tuğlu bayrağa
Könlüm sevgi, təsəlliylə dolardı.
("Arazdan Turana", Nurlan n-tı, Bakı:2003, səh.61)

Böyük bir nisgillə Elxan ordusunu gözləyən şair bu ordunu bir gün öz torpağında salamlayacağına ümid edir. İctimai-siyasi ideal bu şeirdə romantik pafosla tərənnüm olunur.



Şair Elxan ordusuna – türklərə məhəbbətini ananın övladına məhəbbəti ilə müqayisə edir.

Bən uzaqdan seyr edincə həsrətlə
Taleyimə küsdüm, saraldım, soldum.
Ana qəlbində çırpınan şəfqətlə
Altun ordu fərağında saç yoldum.
Bağırdım ki, ey dəliqanlı ərlər!
Sizlər üçün qollarımı açmışam.
Oralardan əksikmi ya bu yerlər?
Yolunuzda mənəkşələr saçmışam.
("Arazdan Turana", Nurlan n-tı, Bakı:2003, səh.62)

Hələ xilaskar türk ordusunun Azərbaycana gəlişindən öncə Şaiq bu səhnəni xəyalında canlandırır. Şair təxəyyülü bu səhnəni poetik boyalarla pozitiv şəkildə canlandırır.

Ən sonunda çiçəkləndi diləyim,
Xatirimdən heç silinməz o günlər.
Ey yaradan, puç olmasın əməyim,
Yasa batsın şimdi bana gülənlər.
Xatırlarım, yaz idi həp dağ-daşım
Tazə gəlin kibi pək süslənmişdi.
Sevincimdən göyə dəyirdi başım,
Üzərimdə dilək qanatlanmışdı.
("Arazdan Turana", Nurlan n-tı, Bakı:2003, səh.63)

"Neçin böylə gecikdin?" şeirini də A.Şaiq 1918-ci ildə rus-erməni qüvvələri tərəfindən Bakıda törədilmiş qətliam münasibətilə qələmə almışdı. Şair millətinə üz vermiş faciənin ağırlığı altındadır. Vətəninin darda olması şairi kədərləndirir və o, dünyada yeganə xilaskarını – türkü yardıma çağırır. Şeir hüznlü bir ruhda başlasa da, qalibiyyət əzmini də ifadə edir.

Sən gəlməsən, dolumsanmış ürəklər heç şad olmaz,
Sən gəlməsən xərabəyə dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz,
Başqasını istəməm də, ey türk, çabuq sən gəl, sən,
Bəkləməkdən yoruldum, eh iştə gec qaldın, nədən?
("Arazdan Turana", Nurlan n-tı, Bakı:2003, səh.63)

A.Şaiqin "Arazdan Turana" poeması da vahid, mənəvi, bölünməz Turan idealının vəsfinə həsr olunub. Romantik poema ilk dəfə "Qurtuluş" qəzetinin 20 aprel 1920-ci il nömrəsində dərc olunub. Şair alleqoriyadan istifadə edərək onu düşündürən mətləbləri oxucuya üstüörtülü şəkildə, kontekstaltı çatdırır. Bingöl ətəklərindən gələn Araz Kürə yaxınlaşır və onunla söhbətə başlayır. Daha doğrusu, şikayət edir. O, Turan adlı bir gözəlin dara düşdüyünü acı bir təəssüflə nəql edir. Arazın sözlərinə görə, Turanın olduğu Qızıl alma bağı sehirli divlərin əsarətindədir.

Girmiş sehirli divlər qızıl alma bağına,
Qara quzğun uşuşmuş soluna və sağına.
Derlər dünya gözəlinin dizində yad başlar var.
Süzgün, bayğın gözündə qan köpürən yaşlar var.

Söhbətin darda olan mənəvi Turandan getdiyi məlumdur. Azərbaycan sovet istilası ərəfəsindədir. Şair türk birliyinin təhlükədə olduğunu bilir və həyəcan siqnalı qaldırır.

Gülümsərkən ağzından güllər saçan o gözəl
Şimdi ağlar, gözündən inci damlar. Xain əl
Girmiş məsum qoynuna, yaralayır köksünü,
İnlər: Yoxmu Turanda qurtaracaq ər bəni?

Abdulla Şaiqin Azərbaycan xalqının milli özünüdərk prosesinin həlledici mərhələsində öz tarixi yeri və zamanı etibarilə uğurlu olan fəaliyyəti miqyası və mahiyyəti baxımından da



çox nəhəngdir. Onun milliləşmə uğrunda həyata keçirdiyi işlər Azərbaycan xalqının tarixi müqəddəratının, taleyinin həll olunduğu dövrə təsadüf etdi. Milli mənlik şüuru yeni-yeni oyanmağa başlayan Azərbaycan xalqı bütün sahələrdə, o cümlədən təhsildə də ciddi maneələrlə qarşılaşırdı. Çar hökuməti milli özünüdərk prosesinin qarşısını almaqdan ötrü müxtəlif üsullara əl atırdı. Məktəblərdə ana dili fənni məcburi deyildi. Şagird ərizə ilə müraciət edib ana dili fənnindən azad ola bilərdi. Ana dili müəllimi başqa fənn müəllimlərinin aldığı məvacibin beşdə birini alırdı. Milli dil və milli mədəniyyət hər vəchlə gözdən salınırdı. Belə mühitdə gözünü açan, dünyagörüşü formalaşan azərbaycanlıların öz soy-kökünə, mədəniyyətinə münasibəti necə ola bilərdi?! Ən əsası – gələcəkdə onları nə gözləyirdi?! Abdulla Şaiqi gecə-gündüz çalışmağa, qələmi süngüyə çevirməyə vadar edən acı həqiqət bu idi.

1917-ci ildə çar hökuməti sözdə "Məktəblilərin milliləşdirilməsi" barədə qərar versə də, milliləşdirmənin həyata keçirilməsinə maneələr törətməkdə davam edirdi. A.Şaiqin pedaqoq və ədib kimi uzun illər cəhd və əmək sərf etdiyi milliləşmə proqramı Azərbaycan Xalq Cümhuriyyəti dövründə reallaşa bildi. Məhz Cümhuriyyət dönəmində leqal şəklə salınan bu layihə ilə anadilli təhsilin əsası qoyulmuşdur. A.Şaiqin rəhbərliyi və dəstəyilə ilk anadilli sinif açıldı. Zaman-zaman siniflərin sayı artırıldı və bu məktəb Şaiq Nümunə Məktəbinə çevrildi. Sonralar Azərbaycan xalqının tarixi təkamülündə önəmli rol oynayacaq milli təfəkkürlü ziyalılar həmin məktəbin yetirmələri idi. Şaiq Nümunə Məktəbi Azərbaycan mədəniyyətinə T.Ş.Simurq, R.Axundov, C.Cabbarlı, M.Müşfiq, B.Talıblı, S.Rüstəm, Niyazi, Ə.Bədəlbəyli, Ş.Bədəlbəyli kimi tanınmış şəxsiyyətlər bəxş etmişdir. Şaiq Nümunə Məktəbinin tələbəsi, jurnalist Vəli Hacı oğlu müəlliminin həyata keçirdiyi ictimai-siyasi missiyanın əhəmiyyətini düzgün qiymətləndirir: "Bu binada ruslar arasında ilk olaraq türk məktəbi, türk siniflərinin təməli qoyulmuşdur. Bu bina həqiqi bir xalq ocağı olmuş, oluyor və olacaqdır da. İştə bu milliləşmə, bu türkləşmə

də ilk dəfə olaraq Abdulla Şaiq bəyin səyi və əməli sayəsində hüsulpəzir olmuşdur".

Bu bir həqiqətdir ki, A.Şaiqi turançılıq ideyaları ilə bağlayan ilk növbədə qan yaddaşı idi. Böyük qardaşı – Axund Yusif Talıbzadənin bioloji və ideoloji cəhətdən ardıcılı olaraq A.Şaiq də bu mənəvi sərvətin – türk olmağın dəyərini bildi və onu yaradıcılığında daima yüksək zirvələrə qaldırdı.

"Şaiqi Şaiq yapan Axund Yusifdir. Ağabəyisinə qarşı dərin sevgisi bulunan Şaiq məfkurə xəzinəsini ondan irs almışdı",- deyən Əbdülvahab Yurdsevər fikirlərinə bunları da əlavə edir: "Ayrıca bir çox şeirlərində Abdulla Şaiqin fikri siması üzərində mərhum ağabəyisi Axund Yusif (Yusif Ziya) Talıbzadənin (bu məfkurəyə bağlılığını sərahətən isbat etmişdir) böyük təsiri olmuşdur. Axund Yusifin türkçülüyündə və turançılığında isə kimsənin şübhəsi olmasa gərəkdir. Xarakteri etibarilə Şaiqin tamamən xilafına olaraq fəal bir siyasət adamı və usanmaz bir mücadiləçi bulunan Axund Yusif ... qayət hərəkətli və fəal bir mücadilə adamı idi". (Ə.Yurdsevər. Abdulla Şaiq vəfat etdi. Vətən səsi, 14 mart, 1991).

A.Şaiqin böyük qardaşı Axund Yusif Talıbzadə dövrünün görkəmli maarif və din xadimi, şair, dramaturq, hərbçi olmuşdur. Yusif Ziya əsrin əvvəllərində Bakının mədəni və siyasi həyatında yaxından iştirak etmişdir. İslam dininə dair 10-dan artıq kitabça və risalələri çapdan çıxır. Milli ruhda şeirlər yazmış Yusif Ziya, həm də "Ərmənusə", "Əmr Xalid ibn Vəlid" faciələrinin də müəllifidir. Yusif Ziya ilk islam xəritəsinin yaradıcısıdır. O, "Müsavat" partiyasının yaranmasında iştirak edən ilk üzvlərdən biri olur. Yusf Ziya 1912-ci ildə Osmanlı dövlətinə gedir və orada hərbi təhsil alır. Balkan müharibəsində, Birinci Dünya müharibəsində, Qars-Ərdəhan cəbhəsində türk ordusunun sıralarında ruslara, ermənilərə qarşı qəhrəmanlıqla vuruşur, 1918-ci ildə türk ordusunun tərkibində yenidən Bakıya qayıdır. ADR-in siyasi həyatında ciddi fəaliyyət göstərir. XI ordunun Azərbaycanı istilasından sonra vətənə qayıdan Yusif Ziya İran sərhəddində həbs olunur, lakin N.Nərimanovun



zəmanəti ilə buraxılaraq Naxçıvana hərbi komissar təyin edilir. Sovet siyasəti ilə barışmaz mövqedə olan mücahid 1922-ci ildə Bakıya qayıdır və N.Nərimanovun razılığı ilə Türküstana gedir. Yusif Ziya Ənvər Paşanın rəhbərliyi altında rus ordusuna qarşı vuruşur. Döyüşlərin birində yaralanır və Amu-Dərya çayını keçərkən çayda boğularaq şəhid olur.

Azərbaycan ədəbi fikir tarixində xüsusi xidmətləri və yeri olan Abdulla Şaiq tərtib etdiyi 30-a yaxın dərslikləri (bəzilərinin müəllifi, bəzilərinin həmmüəllifidir) ilə pedaqogika tarixində milli intibahın ilk tribunlarından hesab edilə bilər. Tədrisə dərslikləri ilə milli dil, milli düşüncə tərzi, folklor süjet və obrazlarını gətirən Abdulla Şaiqin bütün çoxcəhətli fəaliyyəti onun apardığı ideoloji işin tərkib hissəsidir. Ədib ana dilində ilk sinif təşkil etməsi, anadilli dərsliklər hazırlaması, uşaqlar üçün əsərlər yazması və tərcümələrilə böyük bir missiyanı üzərinə götürmüş və bu işi uğurla həyata keçirmişdir. 11 adda 30-a qədər dərsliyin müəllifi olan A.Şaiqin 1919-cu ildə nəşr olunan "Türk çələngi" və 1920-ci ildə nəşr olunan "Türk ədəbiyyatı" dərslikləri onun dünyagörüşünün ideoloji əsaslarını, bədii zövqünü, pedaqoji səriştəliliyini əks etdirir. Hər iki dərslik ortaq türk mədəniyyətinin təbliği və tədqiqi baxımından çox əhəmiyyətlidir. Dərsliklərdə S.Ə.Şirvani, S.P.Sezai, Z.Göyalp, Ə.Hüseynzadə, N.Əlkazımi, İ.Hikmət, M.Əmin, Ə.Hikmət, T.Fikrət, M.Ə.Rəcaizadə, C.Şəhabəddin kimi sənətkarların əsərlərindən nümunələr təqdim olunur. Dərsliklərdə yer alan mətnlərin adlarını görmək kifayətdir ki, dərsliklərin və onların müəllifinin tendensiyası bəlli olsun. Burada türklərin qədim dövrlərdən başlamış ədibin öz dövrünə qədər olan mədəni təkamülü əks olunur. Dərslikdə dünyanın yaranışı barədə mifoloji mətnlər, türklərin etnogenezisi haqqında, türk mənəvi dəyərləri, əxlaqı və dili barədə bilgilər müxtəlif elmi və ədəbi qaynaqlardan istifadə olunmaqla təqdim edilmişdir. Mətnlərin adlarından göründüyü kimi, dərsliklərdə şagirdlərə türklərin etnik kimliyi, coğrafi əraziləri, məişəti, mədəniyyəti haqqında informasiya ötürülürdü: "Türk aləmi" (Türk çələngi, 1919), Ə.Hüseynzadə "Türk dili"

(Türk çələngi, 1919), Ə.Canib "Turanın yolu" (Türk çələngi,1919), "Türk qanı" (Türk çələngi,1919). Z.Göyalp "Türklük tufanı", "Altun yurd", "Ərkinəqul" (Türk çələngi, 1919), İ.Ələvi "Türk obasına səyahət" (Türk ədəbiyyatı, 1920), Z.Göyalp "Dəli Domrul" (Türk ədəbiyyatı,1920) və s.

Göründüyü kimi, Abdulla Şaiq "Türk çələngi" dərsliyinə Əli bəy Hüseynzadənin "Türk dili" məqaləsini daxil etmişdir. Onu da qeyd edək ki, bir sıra məsləkdaşının bioqrafı olan A.Şaiq Ə.Hüseynzadə şəxsiyyəti və yaradıcılığı haqqında ilk oçerkin müəllifidir. 1912-ci ildə çap edilən "Gülzar" dərsliyində o, Ə.Hüseynzadənin həyat və yradıcılığı barədə məlumat vermiş, onun Azərbaycan mədəniyyəti tarixində xüsusi yeri və xidmətləri barədə söz açmışdır.

Əsas amalı uşaqlara öz ana dilini və ədəbiyyatını tanıtmaq, sevdirmək olan A.Şaiq bir pedaqoq və vətəndaş kimi prinsiplərinə həmişə sadiq qaldı. Sovet hakimiyyətinin bərqərar olduğu illərdə - vulqar sosiologizm, proletkultçuluq ideyalarının tüğyan etdiyi dövrlərdə də onun dərsliklərinin ideoloji kursu mümkün olduğu qədər qorunub saxlandı. A.Şaiqin sonrakı dərsliklərində də prioritet milli ədəbiyyat üzərində idi. Ümumtürk mədəniyyətinin İ.Nəsimi, Ş.İ.Xətai, Y.İmrə, M.Füzuli, Nəfi, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir kimi nümayəndələrinin bioqrafiyası və onların əsərləri, sovet stereotiplərinə uyğun olmadıqları halda, dərslikdə yer alırdı.

A.Şaiq çox diapazonlu yaradıcılığının bütün sahələrində Azərbaycan Xalq Cümhuriyyətinin tribunu olmuş, fikri və əməli işi ilə Cümhuriyyət ideyalarını dəstəkləmişdir.



Fil.ü.f.d. **Yusif GÜNAYDIN**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,*
*Aparıcı elmi işçi*

## HÜSEYN CAVİD VƏ XALQ CÜMHURİYYƏTİ ROMANTİK QƏHRƏMANLARIN SOSİAL ƏDALƏT ARZULARI

Düz bir əsr bundan öncə qoca Şərqin çoxəsrlik tarixində ilk dəfə Azərbaycanda Demokratik Cümhuriyyət yaradanlar xalqımızın uzaqgörən, istedadlı, milli dövlətçilik ənənələrini yaşada bilən bacarıqlı bir xalq olduğunu sübuta yetirdilər. Xalq Cümhuriyyəti yarandığı ilk gündən "türkləşmək, islamlaşmaq", "müasirləşmək" şüarları altında ictimai həyatın demək olar ki, bütün sahələrində geniş və köklü islahatlara başladı. Qısa müddət ərzində qəbul edilən mühüm qərarların sırasında ilk növbədə 1918-ci il 27 iyun tarixli Azərbaycan-türk dilinin dövlət dili elan edilməsi ilə bağlı tarixi qərarı xüsusi qeyd etmək lazımdır. Bu sənəd ana dilinin rəsmi status alması, tətbiqi, işlənilməsi, tədqiq və inkişaf etdirilməsi ilə bağlı ilk qərar idi. Başqa bir qərarla bütün ibtidai siniflərdə təhsilin icbari surətdə ana dilində olması qanuniləşdi. Bununla da lap son günlərə qədər gah "müsəlman", gah "tatar" dili adlanan ana dilimizin öz tarixi adı rəsmən təsdiq olunmaqla yanaşı, ana dilimizdə milli təhsil sisteminin əsası qoyuldu. 1919-cu ildə Azərbaycan parlamenti ilkin olaraq dörd fakültədən ibarət olan Bakı Dövlət Universitetinin açılması ilə bağlı qərar qəbul etdi. Artıq noyabrın 15-də Universitet auditoriyalarında ilk mühazirələr başladı. Gənc dövlətə yüksək ixtisaslı kadrlar çox lazım idi. Buna görə də dövlət universitetinin açılması ilə yanaşı, 1919-20-ci illərdə dünyanın müxtəlif ali məktəblərinə dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gənc göndərildi. 1919- cu ildə Bakıda və müxtəlif bölgələrdə 700

yeni məktəb açıldı və bu təhsil ocaqlarında dərs oxuyan şagirdlərin sayı 50 minə yaxın oldu.

Qeyd etmək lazımdır ki, dövlət quruculuğu yolunda aparılan islahatlar, həyata keçirilən tədbirlər çox gərgin, mürəkkəb ictimai-siyasi və tarixi şəraitdə, gənc Azərbaycan cümhuriyyətinə qarşı onun bədxahları tərəfindən tuşlanan çoxsaylı təxribatları, müxtəlif təziqləri dəf edə-edə aparılırdı. Azərbaycanın müstəqilliyini gözü götürməyənlərin cəhdlərini rədd edərək, gənc cümhuriyyət dövlət quruculuğunu, dövlət idarəçiliyi metodlarını inkişaf etdirir, demokratik islahatları, durmadan həyata keçirirdi.

İnsan haqlarını söz və vicdan azadlığını ali dəyərlər kimi təsdiqləyən cümhuriyyət, bu dəyərlərin gerçəkləşməsi uğrunda mübarizə aparırdı. Azad mətbuatın inkişafı üçün hər şərait yaradılmış, kütləvi informasiya vasitələri üzərindən dövlət nəzarəti götürülmüşdü. Cümhuriyyətin mövcud olduğu qısa müddət ərzində ana dilimizlə yanaşı, rus, gürcü, yəhudi, polyak, fars dillərində təxminən 100 adda qəzet və jurnal çıxmışdır. "Molla Nəsrəddin", "İstiqlal", "Azərbaycan", "Açıq söz", "İqbal", "Dirilik", "Təkamül", "Mədəniyyət", "Qurtuluş" kimi mətbu orqanlar isə milli məfkurənin carçısı və təbliğatçısı idi. "Azərtac" adlanan Azərbaycan Teleqraf Agentliyi də Xalq Cümhuriyyəti dövründə yaranaraq, bu gün də öz uğurlu fəaliyyətini davam etdirir. O dövrdə ədəbiyyat, teatr, musiqi, təsviri sənət sahələrində də ciddi canlanma müşahidə olunurdu. Fəaliyyətə 1873-cü ildən başlayan professional teatrımız yalnız Cümhuriyyət dövründə dövlət teatrı statusu aldı. Mayılov teatrının binasının milli teatrımız üçün alınması barədə qərar qəbul edildi. Milli səhnəmizdə Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlının əsərləri ilə yanaşı dünya klassiklərinin də pyesləri təqdim olunurdu. Azərbaycan aktyorları tez-tez yığcam truppalarla Dağıstan, Gürcüstan, Türkmənistan, Özbəkistana qostrol səfərlərinə çıxır, yerli auditoriya tərəfindən rəğbətlə qarşılanırdılar. Bu qostrollar Türkmənistan və



Özbəkistan milli teatrlarının da inkişafına güclü təkanlar verdi. Romantik dramaturgiyamızın banisi Hüseyn Cavidin əsərləri, bu əsərlər əsasında hazırlanmış teatr tamaşaları xalq tərəfindən çox sevilirdi. Görkəmli şair-dramaturq Xalq Cümhuriyyəti illərində "İblis" (1918), "Uçurum" (1919) dramlarını yazmış, "Afət" pyesi üzərində yaradıcılıq işini başa vurmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin şüar etdiyi "İnsanlara hürriyyət, millətlərə istiqlal" ideyası romantik dramaturqun bütün yardıcılığının qayəsinə, həm də öz humanist təbiətinə yaxın və doğma idi. Onun yaratdığı romantik ruhlu qəhrəmanlar insanın insana dost, qardaş olduğu, zülmdən, istibdaddan, ədavətdən, xəbislikdən uzaq olan ədalətli cəmiyyət arzusundadırlar. Onun yaradıcılığı milli romantik ədəbiyyatımızı dərin fəlsəfi məzmunla zənginləşdirdi, milli dramaturgiyamızın inkişaf tarixində yeni bir mərhələ təşkil etmiş oldu. Bu bədii irsə xas olan humanist mündəricə, parlaq obrazlılıq, metoforizm, poetik-obrazlı təfəkkürün miqyaslılığı, estetik ideallların ucalığı, aliliyi, koloritli dil, klassik poeziyamıza məxsus əruz vəzninin demək olar ki, bütün bəhrələrinin metrik imkanlarından bəhrələnmək qabiliyyəti böyük şair-dramaturqa XX əsr Azərbaycan ədəbiyyatında özünə layiq yüksək yer tutmaq hüququ verir. Cavid dramaturgiyasının öncül nümunələri öz ideya-estetik mahiyyəti, bədii-fəlsəfi məziyyətləri və sırf tipoloji xüsusiyyətlərinə görə dünya romantik ədəbiyyatı nümunələri ilə bir sıraya gətirilməyə layiqdir. Cavid çoxəsrlik Şərq mədəniyyətinin onun zəngin ədəbi-fəlsəfi ənənələrinin yetirdiyi müdrik qələm sahibi olsa da, ədibin humanist məzmunlu yaradıcılığı ümumbəşəri mahiyyət daşıyır. Dünya romantik ədəbiyyatına xas olan motiv və mövzular dairəsi, Şərq əsatirlərindən gəlmiş mifoloji personajlar yalnız Cavidin bədii metod və üslub prizmasından keçəndən sonra onun yaradıcılıq nümunələrinə daxil olur. Başqa sözlə, Cavidin böyüklüyü həm də ondadır ki, ədib ondan çox əvvəl yaranmış ədəbi ənənəyə, fəlsəfi-estetik konsepsiyaya yaradıcı mövqedən yanaşmağı, məşhur, geniş yayılmış mövzuları yeni məzmunla zənginləşdirib, onlara fərqli təfsirlə yeni həyat bağışlamağı

bacarıb. Artıq qeyd etdiyimiz kimi Xalq Cümhuriyyəti dövründə yaranmış "Uçurum" pyesi ilk baxışda melodramatik motivləri üstünlük təşkil edən səhnə əsəri təəssüratı bağışlayır. Lakin Cavid hələ o dövrdə yeniləşmək, müasirləşmək, avropalaşmaq şüarları ilə mücadiləyə atılan cəmiyyəti təqib edən ciddi bir təhlükəni görüb, ona tənqidi mövqedən yanaşaraq, ictimaiyyəti ayıq salmağa çalışmışdır. "Uçurum"un müəllifi avrosentrizmin təbliğatçılarına xatırladır ki, müasirləşmək milli mentaliteti itirmək bahasına baş verməməlidir. "Uçurum" əsərinin yazılmasından yüz ilə yaxın bir müddət ötsə də bu əsərin ideya məzmunu müasir dövr üçün də aktualdır. Nəhəng transkontinental şirkətlərin sürətlə dövriyyə edən saya-hesaba gəlməyən kapitalı kiçik müəssisələri uda-uda qitədən-qitəyə irəliləyir. Müxtəlif xalqların həyat tərzinə, hətta düşüncə tərzinə güclü təsir edən bu proses qloballaşma adlanır ki, bu bütöv xalqların assimilyasiyasına səbəb ola bilər. Yenilik, dəb, müasirlik adı ilə gələn prosesdə xalqların milli mənliyini qoruya bilməsi vacib şərtdir. Qərbin dəyərlərini kor-koranə qəbul etməyin yeri yoxdur, əks təqdirdə yeni nəslin qarşısında dibi görünməyən dərin bir uçurum açıla bilər. Bunu bizlərə böyük H.Cavid xatırladır.

Hüseyn Cavidin Cümhuriyyət dövründə yazıb, başa çatdırdığı daha bir dəyərli əsər də "İblis" faciəsidir. İblis - insanın antitezası monoteist dinlərin təşəkkül tapdığı qədim zamanlardan dini-sxolostik məxəzlərdən də yaradıcı şəkildə qidalanan romantik ədəbiyyatın aparıcı mövzularından birinə çevrilib. Klassik ədəbiyyat nümunələrində İblisin əsas süjetdaxili dramaturji funksiyası adəm oğlunu haqqın yolundan sapdırıb günah sahibi etməkdirsə, Cavidin İblisi bu günahlar girdabında çabalayan insan cəmiyyətində fərqli məqsədlərlə peyda olur. Onun amacı özünə məhz insanlar arasında oxşar - əkiz tapmaq, bu əkizini onun öz toplumuna təqdim etməklə özünün, yəni İblisin yoxluğunu, hətta heçliyini sübuta yetirməkdir. Odur ki, Cavidin İblisi əsərin süjet xəttinin dramaturji dinamikasına paralel olaraq ciddi təbəddülata uğrayır - İblis-Mələk, İblis-Şərti simvolik obraz və nəhayət, İblis-İnsan.



Beləliklə İblisin iblissizləşməsi bu əsərdə insanın demonlaşması hesabına başa gəlir. Bu əsərin səhnə taleyi həmişə uğurlu olmuş, teatrımızın bir çox görkəmli xadimləri "İblis"lə yanaşı, Hüseyn Cavidin digər pyeslərində də işləməyi, obraz yaratmağı özlərinə fəxr saymışlar.

Odur ki, Cavid dramaturgiyası Azərbaycanda romantik aktyor məktəbinin də əsasını qoymuşdur. Bütün romantik sənətkarlar kimi humanist təbiətli Hüseyn Cavid də yaşadığı cəmiyyəti insan haqlarını uca tutan, zülmdən, zorakılıqdan, xəyanət və xəbislikdən uzaq olan bir toplum kimi görmək arzusunda olub. Bu amalı qəhrəmanlardan birinin dili ilə belə ifadə edib:

- Mən məhəbbət əsiriyəm hər an,
Hər zaman istərəm bir öylə cahan,
Ki, bütün kainatı eşq olsun,
Könül uşduqca etila bulsun.
Rəqs edib orda möhtəşəm bir hiss,
Yasa batsın da, ağlasın İblis.
Qandan əsla görünməsin də əsər,
Saçsın al qönçələr şəfəqli səhər.
Orda üz bulmasın işgəncə, kədər,
Oxşasın ruhu pənbə röyalər.
Mana gülsün də həp o nazlı xəyal,
Ah, yalnız o qayeyi-amal...

Mövcud olduğu qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti də bu humanist amalların gerçəkləşməsi üçün mübarizə aparmışdır.

**Aslan KƏNAN**
*Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin şöbə müdiri*

# GÖRKƏMLİ ŞƏXSİYYƏT

*"Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur".*

Heydər ƏLİYEV

Azərbaycan professional musiqisinin və Şərqdə ilk opera sənətinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 1918-1920-ci illərdə "Azərbaycan" qəzetindəki fəaliyyəti haqqında keçən əsrin sonlarına qədər tədqiqatçılarımız söhbət açmağa nədənsə səy göstərməmişlər. Bunun nəticəsi idi ki, böyük şəxsiyyətin Azərbaycan Xalq Cümhuriyyəti dövründə apardığı işlər geniş oxucu kütləsinə bəlli deyildi.

Üzeyir bəy Hacıbəyli həm də istedadlı yazıçı, gözəl publisist kimi də şöhrət qazanmışdır. Onun keçən əsrin əvvəllərində nəşr olunan məqalə və felyetonları o dövrdə çıxan "İrşad", "Kaspi", "Həqiqət", "Tərəqqi", "Yeni İqbal", "Molla Nəsrəddin" və digər qəzet və jurnallarda çap olunmuşdur. O, 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində bir müddət parlament müxbiri işləmiş, sonra isə baş redaktor təyin edilmişdir. Qəzetdə baş redaktor olana qədər burada onun qələmə aldığı "Mühüm məsələlər","Tarixi günümüz", "Milli parlaman", "Nuri Paşa həzrətləri şərəfinə böyük bir ziyafət", "Təəssürat" adlı silsilə siyasi-publisistik yazıları dərc edilmişdir.

Üzeyir bəy "Azərbaycan"dakı məqalə və felyetonlarını "Hacıbəyli Üzeyir", "Üzeyir", "Ü.Hacıbəyli", "Ü.H", "Çı",- "Ü.Əbdül" kimi imzalar altında yazırdı.

Bir məsələni də qeyd etməyi vacib sayırıq. Bəzi tədqiqatçılar Üzeyir bəyin "Azərbaycan" qəzetində nəşr etdirdiyi



"Qurtuluş", "Mühüm məsələlər", "Cidalar görünür" və başqa məqalələrinin dəqiqləşdirilməsinə ehtiyac duyulduğunu yazırdılar. Lakin əgər həmin məqalələrin altında Üzeyir bəy şəxsi imzasını tam şəkildə göstəribsə, bizə elə gəlir ki, təkrar araşdırmaya ehtiyac yoxdur. Yalnız görkəmli tədqiqatçı, Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığının salnaməsini yazan Qulam Məmmədlinin bir fikrini xatırlatmaq istərdik: "O, (Üzeyir bəy – A.K.) müxtəlif zamanlarda, ayrı-ayrı qəzet və jurnallarda "Kəs", "Flankəs", "Behmənkəs", "Mizrab", "Musiqiçi", "Hamamçı", "Çı" və digər imzalar işlətmişdir. Ü.Hacıbəyov "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Sovqat", "Yeni İqbal", "Azərbaycan", "Məktəb", "Kommunist" kimi qəzet və jurnallarda çalışdığı zaman yazılarının altında bu imzaları qoymuş, həmin mətbuat orqanlarından getdikdə isə necə deyərlər, imzalarını da özü ilə aparmışdır".

Azərbaycan Cümhuriyyətinin 23 aylıq hakimiyyəti zamanında Üzeyir bəy "Azərbaycan" və "Dağıstan" adlı musiqi əsərləri ilə yanaşı, həmin mövzularda bir-birinin ardınca "Azərbaycan parlamanı", "Ermənistan və Azərbaycan münasibəti", "Dağıstana kömək", "Dağıstana imdad", "Dağıstan və biz" və bu kimi silsilə publisistik yazılar da qələmə almışdı.

Ü.Hacıbəylinin bu dövrlərdə yazdığı məqalələr həmin illərin salnaməsi olduğunu desək, elə bilirəm ki, yanılmarıq. Onun yazıları tam şəkildə həm xalqın, həm də dövlətin marağı ilə üst-üstə düşürdü.

Yuxarıda göstərdiyimiz mətbu orqanlar haqqında kifayət qədər yazıldığını nəzərə alaraq, Üzeyir bəyin 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dövründə "Azərbaycan" qəzetindəki ədəbi fəaliyyətini müxtəsər qeyd etmək istərdik. Yeri gəlmişkən onu da vurğulayaq ki, bir zamanlar sovet məkanında qəzetin adını nəinki çəkmək, bu barədə düşünmək belə yasaq idi. Ona görə də Üzeyir bəyin özü də 15 ay redaktoru olduğu "Azərbaycan"dakı (iki aylıq fasilə ilə) fəaliyyətini "unutmaq" məcburiyyətində qalmışdı. Bu da o vaxtkı dövrün ab-havasından irəli gəlirdi.

1918-ci ilin sentyabr ayının 15-də Bakı Qafqaz İslam Ordusunun hücumu ilə düşmənlərdən təmizlənir və Cümhuriyyət hökuməti Gəncədən Bakıya köçür.

Üzeyir bəyin jurnalistik və publisistik fəaliyyətini diqqətlə tədqiq etdikdə bu nəticəyə gəlmək olur ki, ən fəal ədəbi yaradıcılığı bilavasitə məhz "Azərbaycan"la bağlı olmuşdur. Onun müxtəlif mövzulardakı məqalələri demək olar ki, hər gün, yaxud günaşırı çap edilmiş, bəzən bir nömrədə iki yazısı ayrı-ayrı imzalarla çıxmışdı.

Qeyd etmək lazımdır ki, biz 1918-ci ilə qədər "Azərbaycan" adlı mətbuat orqanına rast gəlmirik. Çünki bu adda qəzet və jurnal nəşr etməyə cəhd edilsə də, yuxarı dairələr tərəfindən müxtəlif bəhanələrlə qarşısı alınırdı. Bunun da səbəbi aydın idi. "Azərbaycan" adında qəzet nəşri böyük bir ölkənin, böyük bir millətin varlığını təsdiq etmək idi. Bu isə çarizmin siyasətinə uyğun deyildi. Çar Rusiyası dağılandan sonra belə bir fürsət ələ düşmüş və onun ilk təşəbbüsçüsü, qəzetin naşiri və baş redaktoru Feyzulla Əliquluzadə olmuşdu. Lakin o tezliklə fəaliyyətini dayandırmışdı.

1918-ci ildə yeni qurulan Azərbaycan hökumətinin 3 sentyabr tarixli qərarına əsasən, bir çox çətinliklərdən sonra, ayın 15-də Gəncə şəhərində nəşrə başlayan "Azərbaycan" dörd nömrədən sonra oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirmişdir.

"Azərbaycan" qəzeti 8-ci nömrəyə qədər – oktyabr ayının 8-nə kimi "redaksiya heyəti" adından, oktyabr ayının 8-dən 1919-cu il yanvar ayının 16-na kimi Üzeyir bəyin kiçik qardaşı, tarixçi, jurnalist, publisist Ceyhun bəyin (1892-1961), 89-cu nömrədən 1919-cu il 4 iyul tarixli 216-cı nömrəyə qədər Üzeyir bəyin, 4 iyul 216-cı nömrədən sentyabr ayının 1-nə – 265-ci nömrəyə qədər bir müddət Xəlil İbrahimin (1892-1938), ən nəhayət, 265-ci nömrədən 1920-ci il aprel çevrilişinə qədər Üzeyir bəy Hacıbəylinin müdirliyi ilə çıxmışdır.

Qəzetin ilk redaktoru olmuş Ceyhun bəy yeni Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında Əlimərdan



bəy Topçubaşovun başçılığı ilə sədr müavini Məmmədhəsən Hacınski, üzvlər Əhməd bəy Ağayev, Əkbər ağa Şeyxülislamov, müşavirlər Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Versal Sülh Konfransında iştirak etmək üçün Parisə yola düşür. Səfərdə əsas məqsəd Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtdırmağa nail olmaq və vətənimizə aid tarixi, etnoqrafik və başqa sənədləri yaymaq yolu ilə Avropa və Amerika ictimaiyyətini Azərbaycanın vəziyyəti ilə tanış etmək idi. Başqa sözlə, vəzifə bütün üsul və vasitələrlə Azərbaycanın mənafeyini qoruyaraq, onun tam istiqlaliyyətinə nail olmaq idi. Bununla bərabər nümayəndə heyətinə qəti surətdə tapşırılmışdı ki, İrəvan quberniyasının müsəlman rayonlarında olan əhalinin fiziki varlığı ilə yanaşı, bu rayonların ərazi bütövlüyünün qorunması üçün müttəfiq dövlətlər qarşısında təcili olaraq məsələ qaldırılsın.

Bu barədə Ceyhun bəy 9 yanvar 1919-cu ildə "Azərbaycan" qəzetində "Möhtərəm qarelərimizə" müraciətində belə yazırdı: "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetəmizin müdiri sifətilə ifadəyə məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq Cahan Sülh Konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.

Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədigimiz yoldakı həlli hüsn-ifasından asılı olan məsul vəzifəmizin həqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməgi və möhtərəm oxucularımıza kəmali-sidq və səmimiyyət ilə xudahafiz deməgi özümə fərz bildim.

"Azərbaycan" qəzetəsinin müdiri:
Ceyhun bəy Hacıbəyli".

Bundan sonra qəzet müvəqqəti də olsa, 1918-ci ilin oktyabr ayından burada əməkdaşlıq etmiş Üzeyir bəy Hacıbəyliyə həvalə olunur. Bununla da qəzetin nəşrinin ağırlığı bütünlükdə onun üzərinə düşür. Ü.Hacıbəyli 1919-cu ilin əvvəllərin-

dən 1920-ci ilin aprel çevrilişinə qədər "Azərbaycan" qəzetində redaktor kimi fəaliyyət göstərir.

Bu arada xalqının azadlığı naminə mübarizə aparan, dəfələrlə haqsız hücumlara məruz qalan Üzeyir bəyin qəflətən səhhəti pozulur və 1919-cu ilin iyul ayının əvvəllərində o, Bakını tərk etməyə məcbur olur. Bu barədə qəzetin səhifəsində oxuyuruq: "Qəzetəmizin müvəqqəti müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək məqsədilə bir müddətə Bakudan gedib. Müvəqqəti müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir".

Üzeyir bəy iki aylıq müalicədən sonra yenidən "Azərbaycan" qəzetinə başçılıq edir.

Görkəmli ədibin "Azərbaycan"dakı fəaliyyətində müxtəlif mövzulardan ibarət məqalə və felyetonu işıq üzü görmüşdür. Beləliklə, bu deyilənlər kifayət qədər əsas verir ki, "Azərbaycan" qəzetinin nəşrində Ü.Hacıbəylini müstəsna xidmətləri, rolu və iştirakı olan bir naşir hesab edək. Redaktor Ü.Hacıbəyli qəzetin daha maraqlı, məzmunlu olmasına səy göstərmiş, Azərbaycanın müstəqil respublika kimi möhkəmlənməsinə çalışmışdır.

Bəzən qəzetlər, məsələn, ruspərəst "Zarya" "Azərbaycan"nı "Müsavat" partiyasının qəzeti olduğunu istehza ilə bildirirdi. Onun kinayəli çıxışlarına cavab olaraq Üzeyir bəy yazırdı: "... bunu bəyan etməgi lazım bilirik ki, qəzetəmiz partiya qəzetəsi deyildir... Qəzetəmizin yazılarına göz yetirməkdə olanlar şübhəsiz bunu bilirlər. Ancaq burasını heç də gizlətmirik ki, mövcud partiyalarımız arasında Azərbaycan istiqlalını kəmalınca – bidun haşiyə arzu etmək və bu yol uzunu gedərkən sağa və sola dönmək, tərəddüddən azad olub da rast bir istiqamət üzrə getmək qəsdini yalnız bir "Müsavat" firqəsində müşahidə etdiyimizdən bu firqəni istiqlal xadimlərindən ən sadiqi hesab edib, onun fikir və arzularına qəzetəmizdə kəmali-məmnuniyyət yer verməyi özümüzə borc bilirik" ("Azərbaycan" qəzeti, 10.03.1919 il, №133).

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Üzeyir bəyi hədsiz sevindirmişdir. Məhz bu baxımdan o məqalələrinin



birində böyük ruh yüksəkliyi ilə yazırdı ki, artıq "yerimiz, yurdumuz, torpağımız özümüzün, hökumətimiz, camaətimiz, qoşunumuz özümüzün, dinimiz, ayin və adətimizə edilən şəmadətdən qurtulduq-("Azərbaycan" qəzeti, 18.11.1918, № 43) – deyərək, fəxr edirdi.

Başqa bir tərəfdən də Üzeyir bəyi qara fikirlər narahat edir və "...birdən bu azadlığımızı, asudəligimizi, həyatımızı əlimizdən alarlar?!" deyə həyəcanlanır və təlaşlanırdı. O, "Azərbaycan parlamanı" məqaləsində həmin narahatlığını belə ifadə edir: "Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmiyor...

...Qəlblər var ki, bir əsirdən artıq məhkum qalan bir millətin bu gün hakim deyil, yalnız müstəqil və azad olmasını qəbul etmək istəmiyor".

Adını çəkdiyimiz bu məqalədə Üzeyir bəy xarici və daxili düşmənlərə kəskin cavab vermək məcburiyyətində qalır: "Azərbaycan türklərini müstəqil və azad görmək istəməyənlər, ya gərək bizi zor ilə təkrar qul və əsir etsinlər, ya buna gücləri çatmazsa "tən qəzaya verib" əmr vaqe qarşısında ixtiyari-süskün etsinlər və ya buna da vicdanlarını razı edə bilməsələr, vətən deyib, Azərbaycan torpağından çıxıb getsinlər. Bu üç təklifdən hanki birini qəbul etmək istəsələr sahibi-ixtiyardılar. Ancaq bunu dürüst bilməlidirlər ki, biz Azərbaycan türkləri zor ilə də, güc ilə də əsarət zəncirini təkrar boynumuza salmaq istəməyəcəyik" ("Azərbaycan" qəzeti, 5.12.1918-ci il, №56).

Başqa bir tərəfdən də Üzeyir bəy narahat idi. Uzun illərin əsarətindən qurtulmuş bir xalqın nə vaxtsa yenidən rus əsarətinə düşəcəyindən qorxur, ehtiyat edirdi. Bu, xalqın arzuladığı və çətinliklə nail olduğu azadlığını bir daha itirmək qorxusu idi. Üzeyir bəy məqalələrində bu hisslərini gizlətmirdi. Xalq öz azadlığının bir illiyini qeyd etməyə hazırlaşdığı zaman yazırdı: "Deməli, bir gün olacaqdır ki, Rusiyada monarxistlər və ya bolşeviklər hakimi-mütləq olmaq ixtiyarını bir kərəlik ələ alıb da, ondan sonra Rusiyadan alınmış olan "üsyançı"lar üzərinə tökülüb, onları bir itaətə məcbur etmək işinə uğraşacaqlar".

Yenicə azadlıq qazanmış xalqa qarşı "sapı özümüzdən olan baltalar"ın, xaricdən edilən hücumların, erməni daşnakların fəallaşmasının nəticəsi idi ki, Üzeyir bəy bu qənaətə gəlirdi.

Ü.Hacıbəylinin məqalələrində Azərbaycan xalqına qarşı həmişə xəyanət edən nacins ermənilərlə və Ermənistan arasında gedən qanlı müharibələrə son qoymaq üçün 1919-cu ildə Parisdə keçiriləcək Sülh Konfransına ümidlər bəslənilən mülahizələri də maraqlıdır. Üzeyir bəyə tam aydın idi ki, ermənilər Qafqazda yaşayan millətlər arasında ən "layiqli" və ən "məzlum millət" olduqlarını göstərməklə özlərinə qarşı Amerika və Avropada rəğbət qazandırmaq istəyirdilər. Buna nail olmaq üçün illərlə vəsait toplayıb onların qaniçən, hiyləgər siyasətindən xəbərsiz xarici dövlətlərə təbliğatçılar göndərərək özlərini Qafqaz xalqları arasında ən alicənab, "etika və cayizi – həliqiyyət və şayesteyi-istiqlal bir millət" kimi göstərməyə müvəffəq olmuşdular. Buna görə də Ü.Hacıbəyli ilk növbədə xalqımızı Avropa, Amerika və başqa dövlətlərdə yaşayan işgüzar adamlarla ünsiyyət qurmağa, onlarla əməkdaşlıq etməyə çağırırdı. "Bu əməkdaşlıqda bizim tərəfdən heç bir işgüzar adam biganə qalmamalıdır" – deyirdi. Çünki "Qafqaz, baxüsus Azərbaycanın bitib-tükənməz təbii sərvəti" Avropanın, Amerikanın iş adamlarını laqeyd buraxmaz. Üzeyir bəy "bitib-tükənməz" sərvətdən səmərəli istifadə etməyi məsləhət görürdü.

Qəzetdəki fəaliyyətində Ü.Hacıbəyli özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və ideyalı bir publisist kimi göstərmişdir. Təsadüfi deyil ki, Üzeyir bəyin mətbuatda 900-ə yaxın məqalə və felyetonu çap olunmuşdur. Bunların da 100-dən çoxu 1918-1920-ci illərdə nəşr olunan "Azərbaycan" qəzetinin payına düşür.

Ümumiyyətlə, dünya mədəniyyəti tarixində elə şəxsiyyətlər olub ki, onlar əsas sənətlərindən əlavə digər peşələrdə də öz istedadlarını sınamış və bu sahələrdə özlərini yüksək səviyyədə göstərə bilmişlər.

Ü.Hacıbəyli də belə sənətkarlardandır. Böyük şəxsiyyətin bu çoxcəhətli fəaliyyətindən danışarkən, Üzeyir bəyin tələbəsi



olmuş Azərbaycanın dahi bəstəkarı Qara Qarayev yazırdı: "R.Şuman, F.List, R.Vaqner, P.Çaykovski dövri mətbuatla müəyyən dərəcədə bağlı olublar. Məsələn, R.Şuman Leypsiq şəhərində "Yeni musiqi" qəzetini təsis edib, F.List musiqi tənqidinin gözəl nümunələrini yaradıb, opera janrının reformatoru R.Vaqner müxtəlif qəzetlərin əməkdaşı olub, P.Çaykovski "Russkiye vedomosti" qəzetinə Moskvanın musiqi həyatına dair məqalələr yazmışdı..." ("Ədəbiyyat və incəsənət" qəzeti, 04.09.1976).

Dahi bəstəkarın sözlərində böyük bir həqiqət var. Məsələn, Azərbaycanın xalq artisti, məşhur bəstəkar Arif Məlikov gözəl rəsm əsərlərinin müəllifidir. Azərbaycan xalq rəssamı Toğrul Nərimanbəyov dünya musiqi klassiklərinin əsərlərinin mahir ifaçısıdır.

Nəhayət, daha bir məsələni qeyd etmək istərdik. Bəstəkara "Üzeyir bəy" kimi müraciət ediləndə bəzi şəxslər bunu qəbul etmək istəmir və bizə bu deyimə görə irad tuturlar. Lakin qeyd etmək istərdik ki, Azərbaycanda "bəy" titulunu indiki kimi hər yerindən duran ala bilməzdi. Yalnız müəyyən dairələrdə bu titul bir neçə nəfərin şahidliyi ilə təsdiqlənirdi. Sankt-Peterburq Dövlət Tarix Arxivində Üzeyir bəyin "bəy" nəslindən olmasını təsdiq edən sənəddə deyilir:

"1897 avqust, Şuşa.

Bir neçə nəfərdən ibarət Qarabağ bəyləri tərəfindən imzalanmış şəhadətnamədə Üzeyir bəyin "bəy" nəslindən olduğu təsdiq edilir. Şəhadətnaməni imzalayanlardan birinci Xurşudbanu bəyim səbiyyəyi, mərhum general-mayor Mehdiqulu xandır" (fond 361, siyahi 1, iş 796, vərəq 5).

Üzeyir bəyin 1920-ci illərə qədərki ədəbi fəaliyyəti imkan verir ki, onu gözəl jurnalist, kəskin qələmli felyetonçu, misilsiz operetta liberttolarının müəllifi kimi qiymətləndirək. Lakin buna baxmayaraq bir müddət Üzeyir bəydən əsasən bəstəkar kimi bəhs olunmuşdur. Son onilliklərdə tədqiqatçılar tərəfindən dahi sənətkarın jurnalistlik fəaliyyətinə diqqət artmışdır. Üzeyir bəyin anadan olmasının 130 illik yubileyi ərəfəsində onun ədəbi

yaradıcılığının, publisistikasının, mətbu fəaliyyətinin (xüsusilə "Azərbaycan" qəzetindəki fəaliyyəti) araşdırılması alimlərimiz üçün böyük şərəfdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Üzeyir bəy Hacıbəyli Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biridir" sözləri dahi sənətkarın yaradıcılığına verilən ən böyük qiymətdir.

Üzeyir bəyin nəinki Azərbaycan milli operamızın yaradıcısı, hətta bir publisist kimi xidmətlərinin yüksək qiymətləndirilməsində və onun "Üzeyir dünyası" adlı toplusunun yüksək səviyyədə hazırlanmasında Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Mehriban xanım Əliyeva çıxışlarının birində dahi bəstəkar haqqında demişdir: "Üzeyir irsi həqiqətən böyük bir dünyadır. Bu dünyanın əzəməti ondadır ki, Üzeyir bəy bu gün də əsl pedaqoq kimi bizi tərbiyə edir, bizə kədərlənməyi və gülməyi öyrədir".



*Ped.ü.f.d.* **Məlahət MÜRŞÜDLÜ**

## "ŞAİQ "NÜMUNƏ MƏKTƏBİ" CÜMHURİYYƏT DÖNƏMİ MİLLİ TƏHSİL QURUCULUĞUNUN İNTİBAHI KİMİ"

XX əsrin əvvəllərində baş vermiş 1905-ci il inqilabı Azərbaycan ictimai-siyasi həyatında böyük bir canlanma əmələ gətirdi. Bu canlanma ölkənin bütün sahələrində olduğu kimi maarif sahəsində də hiss olunurdu. H.Zərdabi, M.T.Sıdqi, M.Mahmudbəyov, F.Köçərli, R.Əfəndiyev, S.M.Qənizadə Ü.Hacıbəyli, F.Ağazadə , S.S.Axundov, A.Şaiq və digərlərinin timsalında böyük maarifçilik hərəkatı meydana gəldi. Mövcud rus-tatar məktəblərində oxuyanların 31%-i azərbaycanlı idi. Bu məktəblərdə isə təlim-tərbiyənin məqsədi birbaşa olmasa da dolayısı ilə gənc nəsli şovinizm ruhunda tərbiyələndirməyə xidmət edirdi. M.Ə.Rəsulzadə bu dövrü xarakterizə edərək yazırdı: "çarizm Azərbaycanda ruslaşdırma siyasətini iki istiqamətdə həyata keçirməyə başladı: birinci, üləmaları, mollaları və əfəndiləri idarələrdə məmur vəzifəsinə təyin edərək öz xidməti qulluqçularına çevirirdi; ikincisi isə Azərbaycanlı uşaqları rus məktəblərində oxudub, onlardan rus təbiətli "uçitellər" hazırlayırdı. Beləliklə, doğma klassiklərimiz əvəzinə, Güney Azərbaycandakı "mirzələr" Firdovsini, Sədini, Şimali Azərbaycandakı "uçitellər" isə Puşkini, Lermantovu, Tolstoyu və başqalarını təbliğ etməyə başlayırdılar. Nə farslaşmış "mirzələr", nə də ruslaşmış "uçitellər" xalqın istək və arzularını başa düşürdülər. Lakin tədricən "uçitellər" anladılar ki, xalqımızın övladlarına Tolstoy, Puşkin, Lermantovla yanaşı Füzulini, Sabiri, Şirvanini, Cavidi, Ə.Cavadı öyrətmək lazımdır". Xalqın savadsızlığının aradan qaldırılması, ana dilində məktəblərin açılması, proqram və dərsliklərin yaradılması, müəllim kadrlarının hazırlanması dövrün maarifçilərini düşündürən başlıca məsələlər idi. Lakın zamanın diktə etdiyi bu

məsələlər öz həllini Azərbaycanda Xalq Cümhuriyyəti qurulduqdan sonra tapdı. ADR hökumətinin Gəncə şəhərində verdiyi 28 avqust 1918-ci il tarixli ilk dekreti məhz məktəblərin milliləşdirilməsi haqqında idi. Birinci dəfə olaraq ana dili bərabərhüquqlu dil kimi elan edildi və azərbaycanlılar öz ana dilində oxumağın nəinki mümkün olduğunu, hətta zəruri olduğunu başa düşdülər. Arxiv materialları göstərir ki, bu tədbirlər çox çətin və mürəkkəb şəraitdə həyata keçirilirdi. Uşaqları anadilli, yeni məzmunlu proqram və dərsliklərlə fəaliyyət göstərən məktəblərə cəlb etmək çox çətin idi. Dekretin mahiyyətinin valideynlər tərəfindən dərk edilməsi üçün mütərəqqi fikirli müəllimlər mütəmadi olaraq valideynlərlə görüşür və həmkarlarını da buna səsləyirdilər. Bu müəllimlər sırasında biz bir tərəfdən çox tanınmış, uşaqlara həqiqi elmi biliklər verməyə səy edən və Azərbaycan dilini zənginləşdirməyə çalışan A.Səhhəti, digər tərəfdən ilk milli məktəbin – "Nümunə məktəbi"nin yaradıcısı A.Şaiqi görürük. Professor Fərrux Rüstəmov özünün "Milli maarifimizin qaranquşları" adlı məqaləsində məktəbin yaranmasının böyük əhəmiyyət kəsb etdiyini göstərərək yazır: "İlk dəfə orta təhsilin milliləşdirilməsi ADR dövründə həyata keçirilmişdir ki, bu da qüdrətli sənətkarımız A.Şaiqin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə bütün dərslər rus dilində keçirilən Bakı I realnı məktəbinin nəzdində Azərbaycan dili üzrə üç aylıq kurs açıldı. Bu kursu qurtaran şagirdlər üçün 49 rus sinfi olan Bakı I realnı məktəbində bütün dərslər Azərbaycan dilində keçirilən bir sinif (üçüncü sinif) açıldı. Bu sinifdə 25 şagird oxuyurdu. Onlar 1924-cü ildə ana dilində orta məktəbi bitirən ilk məzunlar oldular.Məktəbdə A.Şaiqlə birlikdə C.Cəbrayılbəyli, Q.Rəşad, X.Kələntərli kimi görkəmli pedaqoqlar da dərs deyirdilər. Azərbaycanda milli kadrların yetişdirilməsində sonralar "Abdulla Şaiq adına nümunə məktəbi" kimi şöhrət qazanmış həmin milliləşdirilmiş məktəbin böyük əhəmiyyəti olmuşdur". Bu milliləşdirilmiş siniflər sonralar ilk anadilli məktəbin təməli oldu. Bununla da məktəb tarixində dünyəvi proq-



ramları, təlim-tərbiyə üsullarını özündə ehtiva edən milli təhsilin əsası qoyuldu. Təhsil tariximizə "Şaiq "Nümunə məktəbi"" adı ilə daxil olmuş bu təhsil ocağı çox çətinliklə qurulurdu. Bu üç başlıca amillə bağlı idi. Birinci: mürtəce fikirli müəllimlər ana dilində yeni siniflərin açılması əleyhinə çıxır, azərbaycanlıları rus məktəblərinə cəlb etməyə çalışırdılar. İkinci, çoxları öz doğma dilini bilmirdi. Maarif Nazirliyi məktəbə şagirdlərin qəbuluna ciddi yanaşır, bu prosesdə dil bilməni vacib şərtlərdən biri hesab edirdi. Şagirdlər müsahibədən keçdikdən sonra milli məktəbə qəbul olunurdular. Dili bilməyənlər üçün əlavə kurslar təşkil edilirdi, dili mənimsəməyənlər isə rus bölməsinə göndərilirdi. Üçüncü isə ana dilində tədris plan və proqramının, dərsliklərin olmaması, müəllim kadrlarının çatışmaması, sinif otaqlarının azlıq təşkil etməsi, maddi–texniki təminatın aşağı səviyyədə olması idi. Cəmo Cəbrayılbəyli, Ağaəli Qasımzadə, Qafur Əfəndizadə, Realnı Məktəbinin məzunu Sadıq Quluzadə, Qurbanəli Həsənzadə və Abdulla Abasidze kimi dövrün bacarıqlı müəllimləri A.Şaiqin rəhbərliyi ilə bu problemləri aradan qaldırmağa başladılar. Qısa bir zamanda hazırlıq və digər siniflərin tədris planları məktəbin pedaqoji şurasında müzakirə olunaraq təsdiq edildi. Artıq 1918-1919-cu dərs ilində məktəb yeni tədris planları ilə fəaliyyətə başladı. Məktəbin təqdim etdiyimiz tədris planlarının müasir tələblər baxımında təhlili göstərir ki, bu planlar bugünkü tələblərə cavab verməsə də bir sıra mütərəqqi fikirləri özündə əks etdirir. Belə ki, tədris planlarında fənlər arasında əlaqələrin zəruriliyi və onların məzmununun təlim və tərbiyənin məqsədləri ilə üzvü surətdə bağlılığı nəzərə alınmışdır. Planda öyrədilən fənlərin siyahısı, tərkibi, keçirilmə ardıcıllığı, siniflər üzrə hər fənnə verilən saatların miqdarı didaktik nöqteyi-nəzərdən əsaslandırılaraq şərhlərlə verilmişdir. Tədris planlarının "Qeyd" hissəsində ana dili və hesab fənnindən əlavə dərs saatına ehtiyac olduqda rəsm və əl əməyinə verilən saatlardan istifadə edilməsinə icazə verilirdi. Daha sonra hüsnxətin türk əlifbasının yazı qaydalarını qavramaqda mühüm rol oynadığı ilə əsaslandırılmış, xarici dil

(alman, fransız, rus) fənlərinə ayrılmış dərs saatlarının çoxluğuna isə izahat verilərək göstərilir ki, mövcud şəraitə görə məktəbi bitirib öz təhsillərini gimnaziya və başqa ali məktəblərdə davam etdirənlərin bu dilləri bilməsi vacibdir. Dərsliklərlə bağlı məktəb rəhbərliyi 26-27.01.20-ci il və 17.02.20-ci il tarixli məktublarla Xalq Maarif Nazirliyinin orta məktəblər şöbəsinə müraciət edərək nağd pulla hazırlıq və birinci, ikinci, üçüncü siniflər üçün "Müntəxəbat", "Türk çələngi", Abdulla Şaiqin Hüseyn Cavidlə birgə hazırladığı "Ədəbiyyat dərsləri" və tarix, təbiət, cəbr, coğrafiya fənləri üzrə dərsliklərin alınmasına imkan yaradılmasını xahiş etmişdi. Məktublara müsbət cavab alındıqdan sonra dərsliklərin alınması uyğun olaraq fənn müəllimlərinə – A.Talıbzadəyə, A.Aslanova, A.Zeynalova, S.Aşurbəyova, M.Mirzəyevə tapşırılır. Şagirdlər bu dərsliklərlə pulsuz təmin edilirdi. Eyni zamanda məktəbdə Abdulla Şaiqin "Türk ədəbiyyatı" və "Milli qiraət" kimi dərsliklərindən də istifadə edilirdi. 1918-ci il iyun ayının 22-də hökumət xüsusi qərar qəbul etdi. Qərarda deyilirdi: "Azərbaycanın milliləşdirilmiş məktəbləri üçün Türkiyədən tədris kitablarının gətirilməsini və müəyyən sayda müəllimlər çağırılmasını zəruri hesab edərək bu məqsədlə İstanbula məlumatı olan bir şəxs ezam edilsin". "Nümunə məktəbi"nin məzunu olmuş, EA-nın müxbir üzvü mərhum Məhəmmədəmin Salehli söyləyirdi ki, Türkiyədən müəllimlər gələnə qədər məktəbdə bir müəllim bir neçə fəndən dərs deməyə məcbur idi. Türkiyədən müəllimlər gəldikdən sonra bir çox fənlərdən dərsləri bizə onlar deyirdi. Süleyman Hikmət tarixi, İsmayıl Həqiqi fizikanı, Durmuş Əfəndi riyaziyyatı, Hikməti təbiəti, Xəlil Fikrət psixologiyanı, Müzəffər bəy ibtidai sinifdə tədris edirdi. Yerdə qalan fənləri isə yerli müəllimlər aparırdılar. Mirzə Abdulla Şaiq, Feyzulla Qasımzadə, ədəbiyyatı, Kərim Qazıyev riyaziyyatı, Qafur Rəşad Mirzəzadə, Cəmo Cəbrayılbəyli coğrafiyanı tədris edirdi. Sovet hökuməti qurulduqdan sonra bu müəllimlərin hamısı geri göndərildi. Xalq Maarif Nazirliyi milli məktəblərdə əsaslı kitabxananın açılmasını zəruri hesab edirdi. Bütün çətinliklərə baxmayaraq



hökumət ana dilində kitablar və digər vəsaitlər almaq üçün 4018 manat pul ayırmışdı. "Nümunə məktəbi"ndə kitabxananın yaradılması üçün hazırlıq işləri A.Şaiqə tapşırılmışdır. Kitabxanada Azərbaycan ədəbiyyatının ən qiymətli nümunələri "Molla Nəsrəddin" jurnalının külliyyatı, Nəriman Nərimanovun dram əsərləri və s. ədəbiyyatlar toplanmışdı. Məktəb şagirdlərinin xüsusi geyimləri, döş nişanları, çiyinlərinə taxılmış paqonları vardır. Məktəbi bitirəndə şagirdlərə şəhadətnamə verilirdi. Sadalanan bütün bu əşya və sənədlər hal-hazırda Abdulla Şaiqin mənzil muzeyində saxlanılır.

ADR zamanı fəaliyyətə başlamış məktəbdə tədrisin keyfiyyəti, müəllimlərin elmi-pedaqoji, metodiki hazırlığı, onların maddi vəziyyətlərinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi hökumətin daim diqqətində olmuşdur. Ölkədə iqtisadi cəhətdən vəziyyətin ağır olmasına baxmayaraq o biri məktəblərdən fərqli olaraq "Şaiq "Nümunə məktəbi"nin" büdcəsi vaxtlı-vaxtında təsdiq edilir, ayrılmış maliyyə gecikdirilmədən ödənilirdi. Məktəb öz fəaliyyətini ADR hökuməti süqut etdikdən sonra da müəyyən müddətə davam etdirdi. 1924-cü ildə məktəbin ilk buraxılışı oldu. Mərhum akademik Məhəmmədəmin Salehli həmin tədbirin çox təmtəraqlı keçdiyini söyləyirdi: "Mən birinci il idi ki, məktəbdə oxuyurdum. Yadımdadır ki, böyük müsamirə təşkil olunmuşdu. Həmin gecəyə Nəriman Nərimanov da gəlmişdi. O, məzunlara "Ay mənim saqqallı cocuqlarım"- deyərək müraciət etdi. O öz nitqində Azərbaycanın gələcəyindən, məktəb məzunlarının qarşısında duran vəzifələrdən danışdı". Məktəbdə milli və bəşəri səciyyə daşıyan prinsiplərə əsaslanaraq gənc nəslə əxlaqi-mənəvi dəyərlər aşılayan məzmun ortaya qoyulmuşdur. Təlimin məhz bu məzmunda aparılması, milli qürur və düşüncəyə malik müəllimlərin çalışması sözsüz ki, sovet ideologiyasına zidd idi. Rejim öz ideologiyasına uyğun nəsil yetişdirməli idi. Sovet rejiminin yeni yaradılmış Xalq Maarif Komissarlığı elə ilk gündən ana dilində yeni sovet məktəbləri açmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirməyə başladı.

Hər şeydən əvvəl açılacaq yeni və mövcud məktəblərin strukturu, təlimin məzmunu və təşkili qaydaları ümumi şəkildə də olsa, müəyyənləşdirildi. Mövcud məktəblərdə bir sıra islahatların aparılması qərara alındı. "Nümunə məktəbi" də bu "islahatlardan" kənarda qalmadı. Elə sovet hakimiyyətinin ilk illərində məktəbdə təlim-tərbiyə işinin məzmunu dəyişməyə başladı, ilahiyyatın tədrisi ləğv edildi. Tarix dərsliklərində hadisələr dövrün tələblərinə uyğun işıqlandırıldı, ədəbiyyat dərslərinin məfkurə istiqaməti başqa səmt aldı. Məktəb iki yerə ayrıldı: aşağı şöbələr və aşağı siniflər birinci dərəcəli doqquzuncu məktəb, üçüncü sinifdən etibarən isə ikinci dərəcəli on ikinci məktəb adlandırıldı. On ikinci məktəb o zaman Fətulla Rzabəyli tərəfindən təməli qoyulmuş Ali Pedaqoji İnstitutunun binasına köçürülərək, institutun "Nümunə məktəbi"nə çevrildi. (İndiki İstiqlal küçəsi, İqtisad İnstitutunun binası – qeyd M.M) "Nümunə məktəbi"nin axırıncı sinif şagirdləri Pedaqoji Texnikumunun əsas siniflərinə keçirildi. Lakin sovet hakimiyyəti illərində də məktəbin üzləşdiyi problemlər öz həllini tapa bilmədi. Türkiyədən gəlmiş müəllimlər öz vətənlərinə döndülər, müəllim kadrlar, dərsliklər, metodiki vəsaitlər çatışmırdı. Hətta vəziyyət o yerə gəlib çatdı ki, Maarif Komissarlığı özünün "48 saylı 15.12.1923 tarixli qərarı ilə türk pedaqoji kadrların çatışmaması ucbatından uyezdlərdə və rayonlarda "Nümunə məktəbləri"nin təşkilinin dayandırılması məqsədəuyğun hesab etdi. 16 iyun 1926-cı ildə Nazirlər Kabinetinin iclasında "yenidənqurma" adı altında 1926-27-ci dərs ilindən "Nümunə məktəbi"nə şagird qəbulunun dayandırılması haqqında qərar qəbul edildi. Xalq Maarif Komissarlığı kollegiya iclasında Nazirlər Kabinetinin qərarını yekdilliklə təsdiq etdi. Beləliklə, 760 nəfər şagirdin təhsil aldığı "Şaiq Nümunə məktəbi"nin fəaliyyətinə son qoyuldu.

Bu il 100 yaşını qeyd edəcəyimiz "Şaiq "Nümunə məktəbi"" Azərbaycan məktəb tarixində yeni bir mərhələnin əsasını qoyaraq milli təhsil quruculuğunun intibahında əsas baza rolunu oynadı. İllərdən bəri mövcud olan köhnə üsulla işləyən



Rus-Azərbaycan məktəbləri yenidən quruldu, yalnız şəhərlərdə deyil, hətta kənd rayonlarında da (Şəkidə, Salyanda, Şuşada) anadilli, yeni üsulla işləyən məktəblər yaradıldı. Ana dilində plan, proqram, dərslik və dərs vəsaitlərinin yaradılması, təlim-tərbiyə işinin təşkilində demokratik və humanist dəyərlərin öyrədilməsi, ailə və məktəbin əlbir işi istiqamətində müəyyən baza formalaşdı. Ən vacibi isə elmi-pedaqoji, metodiki biliklərə malik müəllimlər yetişdirildi. Məktəbdə təhsil alanların əksəriyyəti sonralar sovet elminin inkişafında əvəzsiz xidmətlər göstərmişlər.

Fil.ü.f.d. **Göyərçin MUSTAFAYEVA**
*AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi, böyük elmi işçi*

## XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATININ İKİ BÖYÜK SƏNƏTKARI

XX əsr Azərbaycan ədəbiyyatı "nəhənglərlə" doludur desək, yəqin ki, əsla səhv etmiş olmarıq. Ədəbiyyatı, adətən, dövrlər üzrə öyrənir və araşdırırlar. Biz də bu kiçik araşdırmamızda XX əsr Azərbaycan ədəbiyyatının ən parlaq nümayəndələrindən olan, adları ədəbiyyatımıza qızıl hərflərlə yazılmış iki böyük sənətkar - Hüseyn Cavid və Əhməd Cavadın münasibətlərinə işıq salmağa çalışacağıq.

Mənbələrə əsaslanaraq Cavid-Cavad tanışlığını Ə.Cavadın Gəncə ruhani seminariyasındakı təhsil illərinə aid etmək olar. Sonralar ailəvi dostluğa çevriləcək bu tanışlığın əsasını da "haqsızlığa üsyan"- ədəbi müstəvidə haqsızlığa hayqırış qoymuşdu. 1913-cü ildə nəşrə başlayan "Şəlalə" adlı ədəbi jurnala baş redaktor kimi Türkiyədən Səbribəyzadə Xalid Xürrəm adlı bir nəfər dəvət edilmişdi. Bu şəxs də jurnalın elə birinci nömrəsindən başlayaraq Azərbaycan türkcəsi və ədəbiyyatına, qadın azadlığına qarşı yerli-yersiz məqalələrlə çıxış etməyə, qələm sahiblərinin əsərlərinə öz prizmasından baxmağa və dəyərləndirməyə başladı ki, bununla da jurnalın əsas hədəfi və məqsədi müəyyənləşmiş oldu. Jurnalda çap olunan əsərlər türkiyəli müəlliflərin əsərləri və onların təriflənməsinə, yerli müəlliflərin əsərlərinin isə tənqidinə həsr olunurdu. Hadisəyə Qulam Məmmədlinin sözlərilə aydınlıq gətirək: "...Həmin il Hüseyn Cavid "Sevinmə, gülmə, quzum" adlı şeirini "Şəlalə"yə göndərmişdi. Səbribəyzadə bu şeiri "redaktə" edərək bir neçə sözü dəyişdirməklə əsərin forma və məzmununu təhrifə uğratmış, özü yol verdiyi bu qüsurları bəhanə edib Cavidi "tənqidə" başlamışdı. Redaktorun bu gülünc



hərəkəti ədəbi mühitdə böyük etirazla qarşılandı. İlk növbədə Cavidin özü həmin şeiri əslində olduğu kimi "İqbal" qəzetində çap etdirdi və "Bir – iki söz" başlıqlı cavab məktubunda "Şəlalə"nin hərəkətinə etirazını bildirdi."[Məmmədli. 1988. 143]

Mənbələr baş redaktorun Azərbaycan ədibləri və ədəbiyyatına biganəliyini, yuxarıdan aşağı baxdığını, həmçinin yerli yazarların onun gözündə bir dəyəri olmadığını ortaya qoyurdu. Bu da ədəbi ictimaiyyəti kökündən silkələmiş və sarsıtmışdı. Həmin dövrdə cəmi 21 yaşı olan, lakin buna baxmayaraq milli mənlik və heysiyyatını, milli yazarını qorumağa çalışan gənc Əhməd Cavad üçün Haqq bağıran səsi elə yüksəlir: "...sizdə bitərəflik yoxdur. Əgər olsaydı, "Şəlalə"nin hər sayısında yuxarı başa çıxardığınız şeirlərinizi bir kərəcik olsun gözdən keçirərdiniz. Bunu siz yapmadınız... Vətənimizdəki adlı-sanlı, şanlı şairlərimizi heçə saydığınızı sizə anlatmaqdır. Misal istərsiniz, başda bir üfürüklə yıxmağa qalxışdığınız həssas şairimizi, müəllimim Rəsizadə Hüseyn Cavid əfəndini göstərə bilərəm..." [Cavad.1992. 148].

Həmin məktubun sonunda isə şair yazır: "... Düşünüb yazmaq əlindən gəlməyən qələminiz, doğrudan da "altın"danmı, yoxsa İstanbuldakı o əski fikirli, dargözlü qələm arkqadaşlarınız tərəfindən hədiyyə olunan həzrəti Nuh qələmlərindənmidir? Burası mənim ən çox maraq etdiyim bir nüqtədir..." [Cavad. 1992. 149].

Bəli, gənc yazarın Vətənlə döyünən ürəyi haqsızlığa dözə bilməmiş və ürəyindən keçənləri məktuba "tökmüşdü." Təbii ki, Səbribəyzadə dövrünün qəzet və jurnallarında özünə haqq qazandırmağa, haqlı olduğunu sübut eləməyə çalışsa da Əhməd Cavada cavab verə bilmədi. Vəziyyət o qədər ciddiləşmişdi ki, Səbribəyzadə cənabları Azərbaycanı tərk etmək barədə düşünməyə başladı.

Dövr Azərbaycanın istiqlalı, milli dövlət ideyasının insanların bütün düşüncələrinə hakim olduğu bir dövrə təsadüf etdiyi üçün çox araşdırılmış və tədqiqatçıların nəzər-diqqətini daim öz üzərinə çəkmişdir. Bura məhz Vətən, xalq, millət,

istiqlal carçısı olan və öz məsləkdaşları tərəfindən repressiya caynağına atılan Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Ümgülsüm, Mikayıl Müşfiq və digər vətənpərvərləri də əlavə etsək, dövrün girdabında "itən", lakin tarixdə özlərinə məxsus iz qoymuş şəxsiyyətləri aid etmək olar.

Hər iki ədibi bir-birinə yaxınlaşdıran və birləşdirən telləri bütün İslam dünyasının ümid yeri və pənahı olan Türkiyədir. Türkiyə vurğunluğu Əhməd Cavadı Balkan cəbhəsində vuruşmağa, Xeyriyyə Cəmiyyətində məzlumlara, xalqının maariflənməsinə, yardıma istiqamətləndirmişdisə, Hüseyn Cavid İstanbulda təhsil almış, Türkiyə ədəbi istimaiyyətini yaxşı tanıyan, türk ədəbiyyatı ilə yaxından tanış olan və Azərbaycanda mənzum dram janrının əsasını qoyan bir şəxs, şagirdləri tərəfindən sevilən bir müəllim idi. Hər iki ədibin də yaradıcılığında həm klassik üslubda yazılan qəzəllər, həm də xalq ədəbiyyatı janrı sayılan qoşmalar vardır. Qəzəllərində məhəbbəti tərənnüm edən H.Cavid yazırdı:

Etdikcə mən məhəbbət o kafər balasına,
Etdi cəfayi-naz ilə viranə könlümü.
[Cavid. 2005.118]

Şair sevgilisiylə qovuşmayan aşiqin halının pisləşməsini, gecə-gündüz ah-fəğan eləməsini vurğulayır.

"Rəhm eylə" qəzəlində isə Ə.Cavad sanki onunla eyni məsələ barədə düşünürmüş kimi yazırdı:

Baisi-m övtüm olub, batma vəfasız qanə,
Bəsdir hicran yarası, bən ölürəm, rəhm eylə! [Cavad. 1992. 40]

Azərbaycan, Vətən deyiləndə Cavid Nizaminin, Füzulinin, yüzlərlə azərbaycanlı aydının, vətənsevərin uğrunda ölməyə hazır olduqları o müqəddəs torpağı nəzərdə tuturdu:

Vətən məhəbbətini əmr edibdi Peyğəmbər,
Xoş ol kəsə ona həmdəm olub vüsali-vətən...
Neçün şərafətini, fəxrini verib əldən,
Bu qədər yurduna biganədir ricali-vətən? [Cavid.- 2005.116]



"Bən kiməm" şeirində
Soranlara, bən bu yurdun
Anlatayım nəsiyəm:
Bən çeynənən bir ölkənin
"Haqq!" bağıran səsiyəm! [Cavad. 1992. 138],

- deyən Əhməd Cavad "Azərbaycan" şeirində yaşadığı, üzərində gəzdiyi torpağa, bir sözlə, Vətəninə vurğunluğunu belə ifadə edir:

Yer üzündə yoxdur tayın!
Gur-gur axar neçə çayın!
Bol veribdir, fələk payın!
Azərbaycan! Azərbaycan!

Laçının var, tərlanım var!
Çoxlu şirin dastanım var!
Qorxun yoxdur, düşmanın var!
Azərbaycan! Azərbaycan!
[Cavad. 1992. 217]

Türkiyənin mütərəqqi qələm sahiblərindən Tofiq Fikrət, Rza Tofiq, Namiq Kamal, Əbdulhəqq Hamid Tərxan kimi şəxsiyyətlər yeni inkişaf, milli hüquq, ədəbiyyat, tarix, bir sözlə, elm yolunu tutan gənclər üçün məhz Ə.Cavad, H.Cavid, A.Şaiq, M.Hadi, A.İldırım, M.Müşfiq, Ümgülsüm və digər milli ruhlu yazarlar sayəsində sanki bir mayak rolunu oynayırdılar. Araşdırmalar göstərir ki, sonet, türkü və marşları Azərbaycan şeirinə ilk dəfə Hüseyn Cavid, hətta əruz vəzninin həcəz bəhrinə bu gün də "Cavid həcəzi" adlandırılan bir bəhr gətirmişdir.

Əsərlərini yaşadıqları, oxuduqları, şahid olduqları hadisələrlə bağlayan, hər əsərini öz balası qədər sevib-əzizləyən, özləri istəyən səviyyədə hazır olana qədər üzə çıxarmayan hər iki sənətkar tarix boyu yaşayacaq əsərlər yaratmışlar. Üzərindən

yarım əsrdən artıq bir vaxt keçməsinə baxmayaraq, hər iki sənətkarın əsərləri istər "Peyğəmbər", istər "Topal Teymur" və ya "Çırpınırdın Qara dəniz", "Göy göl", "Azərbaycan bayrağına", "Azərbaycan, Azərbaycan!" və s. bu gün də eyni şövqlə oxunur, səhnədə oynanılır.

Rza Təhmasib də, demək olar ki, H.Cavidin yazıb-yaratmaq arzusunun sərhəd tanımayan bir dünya olduğu fikrindəydi: "...Cavid daim axtarırdı, həmişə öz-özü ilə mücadilə və mübarizədə idi. Cavid öz yaradıcılığında yenilik sevən, mütərəqqi sənətkar idi. O, hər əsərini dönə-dönə məhək daşından keçirdikdən, xüsusilə, şeirlərini tam büllurlaşdırdıqdan sonra üzə çıxarardı." [Təhmasib. 2012. 350]

Şairin həyat yoldaşı Mişkinaz xanım da xatirələrində Cavidin öz əsərlərinə, yaratdığı surətlərə qarşı çox tələbkar olduğunu, öz üzərində çox çalışdığını vurğulayır: "... Cavid bir dəfə dedi ki, "Topal Teymur"u, "Peyğəmbər"i yazarkən elə bil onlarla üzbəüz oturub söhbət etmişəm. Onlar mənə sanki öz təbiətləri haqqında danışmışlar. Bəzən onların bu və başqa səhv hərəkətlərini üzlərinə deyir, günahlandırır, nə üçün belə etdiklərini soruşurdum. Doğrudur, onlar da özlərini doğrultmaq üçün mənə cavablar verirdilər. Bəziləri məni qane edir. Bəziləri isə yox... [Mişkinaz Cavid. 2012. 376]

Eyni fikirlə Əhməd Cavadın yaradıcılığında da rastlaşırıq. Həm müasirləri, həm də həyat yoldaşı Şükriyyə xanım Ə.Cavadın da öz əsərlərinə qarşı çox diqqətli olduğunu xüsusilə vurğulayıblar. Şükriyyə xanım şairə qarşı başlanılan hücumlardan sonra əsasən tərcümələrlə maraqlandığını qeyd etmişdir. Məsələn, Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" əsərinin tərcüməsi zamanı şair xeyli müddət Tiflisdə olmuş, gürcü mütəxəssisləri ilə məsləhətləşmələr aparmış, əsərin tərcüməsinə çox ciddi yanaşmış və nəticədə, həqiqətən də adına layiq bir mənzum tərcümə ərsəyə gətirmişdi. Həmin əsər şair tutulduğuna görə, çap edilməmiş, əsərin tərcüməsini S.Vurğun, S.Rüstəm və M.Rahim rus dilindən çevirməklə tərcümə edərək Azərbaycan oxucusuna çatdırmışdı. Lakin həqiqət hər zaman



qalib gəlir, deyə bir deyim var. Bunu da "Pələng dərisi geyinmiş pəhləvan"ın Ə.Cavadın tərcüməsində 1978-ci ildə çap olunaraq oxucuya çatdırılmasında görürük.

Hər iki ədibin həyat telləri də sanki bir-birinə bağlı olmuş, eyni gündə həbs olunmuşlar. Hüseyin Cavid 1941-ci ildə uzaq Sibir çöllərində həlak olmuş, Əhməd Cavad isə 1937-ci ildə güllələnmişdi. Bu gün hər iki ədibin öldüyünü deyənlər fikrimizcə səhv edirlər. Onlar özlərindən sonar əsrlərcə yaşayacaq elə böyük abidələr qoymuşlar ki, onların öldüyünü düşünmək sadəcə sadəlövhlük olardı. Bu misraları

Mən dünyanın qucağında,
Vətən adlı bucağında
Yandım fəraq ocağında,
Közüm söndü, külüm qaldı - yazan insanın öldüyünü kim deyə bilər ki.

**Ədəbiyyat siyahısı**


1. Cavidi xatırlarkən (H.Cavid haqqında məqalə və xatirələr toplusu), Bakı, 2012.
2. Əhməd Cavad. Seçilmiş əsərləri (iki cilddə), 1-ci cild, Bakı, "Azərnəşr" 1992.
3. Əhməd Cavad. Seçilmiş əsərləri (iki cilddə), 2-ci cild, Bakı, "Azərnəşr", 1992.
4. Hüseyn Cavid. Əsərləri (V cilddə), I cild, Bakı, Lider, 2005
5. Qulam Məmmədli. "Əhməd Cavadı düşünərkən". "Azərbaycan" jurnalı, №1, 1988.
6. Mişkinaz Cavid. "Cavidi xatırlarkən..." Cavidi xatırlarkən (H.Cavid haqqında məqalə və xatirələr toplusu), Bakı, 2012.
7. Rza Təhmasib. "Dostluğumuz". Cavidi xatırlarkən (H.Cavid haqqında məqalə və xatirələr toplusu), Bakı, 2012.

İlahə NOVRUZOVA

*AMEA Hüseyn Cavidin Ev Muzeyinin Elmi katibi*

# HÜSEYN CAVİD YARADICILIĞINDA TÜRKÇÜLÜYÜN, CÜMHURİYƏTÇİLİYİN TƏRƏNNÜMÜ

Azərbaycan ədəbiyyatında "səma şairi", həmçinin "gözəllik və sevgi şairi" kimi məşhur olan Hüseyn Cavidin yaradıcılığında türkçülüyün, cümhuriyyətçiliyin, islamçılığın tərənnümü xüsusi yer tutur. O, Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin ədəbi birliyi olan "Yaşıl qələmlər" dərnəyinin üzvü olmuş, ədəbiyyat sahəsində fəallıq göstərərək öz dəyərli əsərləri ilə şöhrət qazanmağa başlamışdır. "İblis", "Uçurum" kimi məşhur pyeslərini, bir sıra gözəl şeirlərini Cümhuriyyət dövründə yazmışdır.

Qeyd edək ki, Azərbaycanda ilk yaradıcılıq təşkilatları, cəmiyyətləri məhz Xalq Cümhuriyyəti dövründə meydana gəlmişdir. Bu təşkilatların adı Cümhuriyyətin siyasi ideoloji məramına, məqsədinə uyğun idi. Bu dövrdə ədəbiyyatın başlıca mövzuları olan türkçülük, milli dövlətçilik, islamçılıq Hüseyn Cavidin də əsərlərində öz əksini tapırdı. Əhməd Cavad, Cəfər Cabbarlı, Seyid Hüseyn, Üzeyir Hacıbəyli, Abdulla Şaiq və s. vətənpərvər gənc yazıçı və şairlərlə birlikdə Hüseyn Cavid də həmin dövrün ideyalarını tərənnüm edir, Azərbaycanın milli varlığının təsdiqi uğrunda mübarizə aparırdı. Hətta sovet dövründə də bu ideyalar Hüseyn Cavidin əsərlərinin əsas xəttini təşkil edirdi. Buna görə də onu "pantürkist", "panislamist" adlandıraraq tənqid edir, ona qarşı ciddi təzyiqlər göstərirdilər. Əsərlərinə ədəbi məhkəmələr qurulurdu.

Lakin bütün bunlar Cavid əfəndini öz idealından, məslək və əqidəsindən, öz sənət üslubundan döndərə bilmirdi. Türklərin əzəməti və qüdrəti ilə fəxr edən, bu əzəmət və qüdrətin daha da yüksəlməsini arzulayan şair "İblis" faciəsində Vasifin dili ilə



deyir:

Turana qılıncdan daha kəskin ulu qüvvət
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət.

Vətənpərvər, millətpərəst şair olan Hüseyn Cavid türklərin, həmçinin Azərbaycan türklərinin uğursuzluqlarını, fəlakətlərini, faciələrini öz şəxsi faciəsi kimi yaşayır, bu hadisələrlə bağlı qiymətli əsərlər yazırdı. Böyük şairin şah əsəri olan "İblis" əsəri məhz buna misal ola bilər. Şairin yaxın dostu Abdulla Şaiq yazır ki, "1918-ci ilin mart hadisəsindən sonra Cavid yazıçı və münəqqid Hüseyn Sadiq ilə bərabər bizə gəlmişdi. Cavidin bətbənizi ağarmışdı".

Məlumdur ki, 1918-ci ilin martında erməni daşnakları Bakıda və ətraf ərazilərdə azərbaycanlıları kütləvi şəkildə qırmış, dəhşətli faciələr törətmişdilər. "İblis" əsərinin yazılmasına səbəb məhz 1918-ci ilin faciəvi mart hadisələri olmuşdur. Bu məşhur pyesin sonu İblisin dərin, məzmunlu-mənalı monoloqu ilə bitir. Həmin monoloqda müəllif müharibələrin, didişmələrin səbəblərini göstərmişdir. İblis üzünü insanlara tutub deyir:

İblis nədir?
- Cümlə xəyanətlərə bais.
Ya hər kəsə xain olan insan nədir?
- İblis!

Hüseyn Cavidin 1919-cu ildə qələmə aldığı "Uçurum" pyesinin də mövzusunu türkçülük təşkil edir. Türkiyə həyatından götürülmüş bu əsərdə süni avropalaşmanın eybəcərlikləri əks olunmuşdur. Milli mədəniyyətdən uzaqlaşmaq, yad təsirlərə düşmək bir bəla kimi şairi ciddi narahat etmişdir. Cavidin bütün əsərləri kimi "Uçurum" əsəri də öz müasirliyini, ideya-məzmun əhəmiyyətini bu gün də hifz etməkdədir.

Hüseyn Cavid türk dünyasının tarixi şəxsiyyətləri ilə bərabər adi türk insanını da rəğbət və məhəbbətlə, qürur və fərəhlə tərənnüm edirdi. Bu cəhətdən onun Qara dəniz sahilində gördüyü səksən yaşlı qocaya həsr etdiyi şeiri çox maraqlı və

təsirlidir. Məğrur türk qocasını ulu bir dağa bənzədən şair dolğun portret yaradır:

Bu keşakeşdə möhtəşəm, məğrur,
Qoca, səksən yaşında bir sima,
Ulu bir dağ mətanətilə vəqur
Qoca bir türk edib namazı əda;
Vird oqur, haqqa eylər ərzi-niyaz,
Bəlkə dağ sarsılır, o sarsılmaz.

Bu şeirdə türkçülüklə islamçılığın tərənnümü birləşmişdir. Belə ki, şair səksən yaşlı türkün həm zahiri görkəmi – sağlamlığı ilə, həm də onun mənəviyyatı ilə – namaz qılması və Allaha dua etməsiylə qürur duyur, fərəh hissi keçirir. Sonralar – sovet dövründə yazdığı "Peyğəmbər" dramında şair insanın müqəddəslik zirvəsinə yüksəlməsini göstərmişdir.

İnsanları, xalqları, millətləri azad və xoşbəxt görmək istəyən Hüseyn Cavidin ideyalı məhz müstəqil, suveren, demokratik dövlət quruluşu idi. Humanist şair əsərlərində ağır, çətin həyat tərzini, azadlıq düşüncələrini qabarıq şəkildə əks etdirir, insanların məhkumluğunu, əsarət və hüquqsuzluğunu, zülm altında əzab-əziyyət çəkməsini ürək ağrısı ilə qələmə alırdı.

Kəssə hər kim tökülən qan izini
Qurtaran dahi odur yer üzünü

"İblis" əsərində deyilən bu məşhur misralar dövlət quruculuğu və dövlətlər arası münasibətlər baxımından Hüseyn Cavidin müdrik məramını, məslək və əqidəsini parlaq şəkildə ifadə etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları Hüseyn Cavidi "Zamanın ruhlara hökm edən sənətkarı" adlandırmışlar. Hüseyn Cavidə verilən bu yüksək qiymət şairin məhz milli məfkurəyə, milli dövlətçilik quruluşuna rəğbətlə yanaşması ilə,



həmçinin ümumbəşəri humanist ideyaları ilə, parlaq bədii sənətkarlıq məziyyətləri ilə əlaqədar idi. Axı Azərbaycan Xalq Cümhuriyyəti də öz fəaliyyəti dövründə milli mənafe naminə ciddi tədbirlər görür, həmçinin ölkəmizdə yaşayan digər millətlərin nümayəndələrinin hüquqlarına, az saylı xalqların inkişafına hörmətlə yanaşır, demokratik prinsipləri əməli işdə həyata keçirirdi. Öz xalqını və digər xalqları azad, firavan, xoşbəxt görmək həm Hüseyn Cavidin, həm də Xalq Cümhuriyyətinin nəcib məqsəd və amalı ilə bağlı idi.

Məlumdur ki, ədəbiyyatda mətnaltı məna deyilən bir cəhət var. Söz sənətkarları öz əsərlərində açıq deyə bilmədikləri fikirlərini məhz sətiraltı şəkildə ifadə etmişlər. Hüseyn Cavidin də əsərləri bu cəhətdən xarakterikdir. Şairin sovet dövründə – 1926-1928-ci illərdə yazdığı "Azər" poemasında mətnaltı mənaya misal ola biləcək maraqlı mühüm bir hissə var. Poemanın "İsyan" bölməsində olan həmin hissəni ixtisarla veririk:

Söz yoq ki, bu gün gəncliyə baqsan,
Bir sel kimi hər an
Sağlam yeni məfkurələr izlər.
Onlar qoşacaq, çarpışacaqlar,
Bir çoq uçurumlar aşacaqlar.
Onlardakı qüdrət və məharət
Er-gec verəcək xalqa səadət.
Onlar güləcək, güldürəcəklər,
Bizdən daha xoş gün görəcəklər!

Sovet rejimini qəbul etməyən Hüseyn Cavidin bu misraları, heç şübhəsiz, suveren, azad Azərbaycanın yenə də gələcəyinə, müstəqilliyin bərpa olunacağına şairin inamını ifadə edirdi. Fərəhlə demək olar ki, bu müqəddəs inam doğrulmuş, Azərbaycan XX əsrin sonlarında yenidən öz dövlət müstəqilliyinə qovuşmuşdur. Yuxarıdakı şeirdən indi aydın olur ki, şair məhz bugünkü Azərbaycanı nəzərdə tutmuşdur. Bu isə dahi sənətkarın uzaqgörənliyinin heyrətamiz əlaməti idi. Öz

xalqının "yeni məfkurələr izləyərək", "çarpışıb vuruşaraq", "bir çox uçurumlar aşaraq", nəhayət, səadətə qovuşacağını şair necə də dəqiq və müdrikcəsinə əks etdirmişdir.

Məsəl var deyərlər: hörmət və məhəbbət qarşılıqlı olur. Öz xalqını, ölkəsini, dövlətini dərin məhəbbətlə sevən sənətkar xalqımız və dövlətimiz tərəfindən də həmişə əziz tutulmuş, qiymətləndirilmişdir. Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra Hüseyn Cavidə xüsusi qayğı və diqqət göstərilmişdir. Ümummilli lider Heydər Əliyevin Hüseyn Cavidin 100 ilik yubileyi çərçivəsində ədibin cənazəsini uzaq Sibirdən gətirməsi və doğma Naxçıvan torpağında dəfn etdirməsi, bu gün Cavidlərin birgə uyuduğu möhtəşəm məqbərənin tikdirməsi, sənətkarın 120 illik yubileyi ilə bağlı sərəncam imzalaması, bu kimi digər böyük işlərin görülməsi buna bariz nümunədir. Hüseyn Cavidə qayğı və diqqətin davamı kimi Azərbaycan dövlətinin başçısı, cənab İlham Əliyev isə dahi dramaturqun 125, 130, 135 illik yubileyinin keçirilməsi haqqında sərəncamlar imzalamışdır. Ədibin xatirəsinin əbədiləşdirilməsi üçün mühüm tədbirlər görülmüşdür. Bütün bunlar o deməkdir ki, Hüseyn Cavid ölməzdir, bu gün də bizimlədir. Çox sevdiyi Azərbaycan xalqının milli quruculuq işlərində öz əsərləri ilə yenə fəal iştirak edir.



**Lalə Əliyeva**
*AMEA Hüseyn Cavidin Ev Muzeyində şöbə müdiri*

## CÜMHURİYYƏT ŞAİRLƏRİNİN ELMİ-PEDAQOJİ YARADICILIĞINDAN BİR ÖRNƏK

1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrünün parlaq simalarının əksəriyyəti bədii yaradıcılıq, ictimai-siyasi fəaliyyətlə yanaşı elmi-pedaqoji fəaliyyətlə də yaxından məşğul olmuşlar. Bu baxımdan həmin dövrün böyük şairlərindən və pedaqoqlarından Hüseyn Cavidin və Abdulla Şaiqin bir əsəri xüsusi maraq doğurur.

Azərbaycan xalqının böyük şairi, dramaturqu, publisisti və filosofu Hüseyn

Cavid həm də dövrünün istedadlı pedaqoqu kimi tanınmış, xalqın maariflənməsi sahəsində bir müəllim kimi böyük işlər görmüşdür. Müəllimlik praktikası ilə yanaşı, Hüseyn Cavid həm də yenicə yaradılmış müstəqilliyimiz dövründə, böyük ehtiyac duyulan dərsliklərin yazılmasında da qələmini uğurla sınamış və yaxın dostu, müəllim yoldaşı, məsləkdaşı Abdulla Şaiqlə birgə "Ədəbiyyat dərsləri" adlı dərslik kitabını ərsəyə gətirərək nəşr etdirmişlər.

1919-cu ildə çap olunan və cəmi iki nüsxəsi Azərbaycan Milli Elmlər Akademiyası Hüseyn Cavidin Ev Muzeyində saxlanan bu dərsliyin həm Hüseyn Cavid və Abdulla Şaiq yadigarı olmasını, həm də tədris əhəmiyyətinin günümüz üçün də saxlamasını nəzərə alaraq, həmin abidənin muzey əməkdaşları tərəfindən transfonoliterasiyasını hazırlayıb latın qrafikalı yeni Azərbaycan əlifbası ilə cavidsevərlərin istifadəsinə verilməyi qərara alındı. Qeyd edim ki, kitabın tərtibçisi Hüseyn Cavidin Ev Muzeyinin direktoru, fil.ü.e.d Gülbəniz Babaxanlıdır.

Müəlliflərin həm Şərq, həm də Qərb ədəbiyyat nəzəriyyələrinə yaxından bələd olmaları onlara imkan vermişdir ki, hər iki elmi məktəbin uğurlarını sintez edərək öz dövrləri üçün

mükəmməl bir dərslik tərtib edərək onu Azərbaycan məktəbinin tələbləri və milli mentalitet səviyyəsində ərsəyə gətirməyə nail olsunlar.

Dərslikdə ədəbiyyat nəzəriyyəsinə aid o dövrkü biliklərin toplusu öz əksini tapmaqla, öyrəncilərə yığcam şəkildə lazımi məlumatlar verilir, ədəbi yaradıcılığın ana prinsipləri nisbətən sadə bir dildə təqdim edilir.

Dərslikdə həm ədəbiyyatın qanun-qaydaları, həm də ümumiyyətlə, ədəbi əsər yazmağın üsulları şərh edilir. Bununla da kitab həm də yeni yazmağa başlayan sənətkarlar üçün qiymətli qaynaq və rəhbərlik rolunu oynayır.

Hər şeydən öncə, ədəbiyyat haqqında yığcam şəkildə anlayış verən müəlliflər, ədəbi üslubiyyat, ədəbi növlər, şeirin və nəsrin şəkilləri, şeir vəznləri və s. haqqında öz biliklərini o dövr üçün aydın və anlaşıqlı bir dildə ortaya qoymağa nail olmuşlar. Ədəbiyyatın yeniləşməsi və Avropa yönlü ədəbi hərəkatın gerçəkləşməsi də dərslik müəlliflərinin diqqətini cəlb edən problem kimi öz elmi izahını tapmış və bu prosesin əhəmiyyəti xüsusi olaraq vurğulanmışdır. Diqqət çəkən cəhətlərdən biri də, qədim türk şeir ölçüsünün orta əsrlərdə əruz vəzni ilə əvəz olunması haqqında mülahizələrdir.

Əlbəttə, aydındır ki, dərsliyin çap olunduğu 1919-cu ildə Azərbaycan dilində işlək olan bir çox söz və ifadələr, ədəbiyyatşünaslıq terminləri bugünkü oxucu üçün çətin anlaşılır. Elə buna görə də, dərsliyin ikinci nəşrini hazırlayarkən onu 32 səhifəlik geniş lüğətlə təchiz etmişik. Zənnimizcə, bu lüğətin köməyi ilə çağdaş oxucu dərslikdəki mətləbləri daha aydın başa düşə biləcək və müəlliflərin əməyini lazımi səviyyədə qiymətləndirəcəklər.

Onu da qeyd etməyi özümə borc bilirəm ki, son zamanlar bu dərslik haqqında yazılmış bəzi məqalələrdə onun adı yanlış olaraq "Qəvaidi-ədəbiyyə" (Ədəbiyyat qaydaları) kimi göstərilir ki, bu da, zənnimizcə, məqalə müəlliflərinin istifadə etdikləri nüsxələrin naqis olması, onlarda dərsliyin əsil adının yazıldığı üz qabığının olmamasından irəli gəlir. "Qəvaidi-ədəbiyyə" isə,



ümumiyyətlə müəlliflərin bu janra verdikləri addır və kitabın ikinci səhifəsindəki "Bir-iki söz" başlıqlı yazıda özünə yer almışdır.

Ümid edirik ki, böyük Cavidin bütün əsərləri kimi, onun Abdulla Şaiqlə birgə yazdığı bu dərslik də cavidsevərlər tərəfindən məhəbbət və razılıqla qarşılanacaqdır.

Vətən tariximizin qısa, lakin şərəfli bir dövrünün bütün yadigarlarını müasir gəncliyə çatdırmaqla, onlarda milli qürur duyğusunun daha da gücləmməsinə nail olmaq hər birimizin vətəndaşlıq borcudur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli Sərəncamında qarşıya qoyulan vəzifələrin işığında tarixi-mədəni yaddaşın bərpası üçün bu cür əsərlərin nəşri çox böyük əhəmiyyət daşıyır. Prezident Sərəncamında deyilir:

"Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarından bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli Lider Heydər Əliyevin Respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı."

Şübhəsiz ki, "şüurlarda bərqərar olan müstəqillik ideyasının" formalaşmasında başqa ziyalılar, ictimai-siyasi xadimlərlə yanaşı, Hüseyn Cavid və Abdulla Şaiqin, eləcə də onların azərbaycanlı tələbələrə ərməğan etdiyi "Ədəbiyyat dərsləri" kitabının böyük rolu olmuşdur.

Dövlət müstəqilliyimizin 25 ili ərzində başqa elm sahələri ilə yanaşı Azərbaycan ədəbiyyatşünaslıq elmi də bir çox sanballı əsərlər ərsəyə gətirmiş, dünya humanitar elminə inteqrasiya

etmək üçün möhkəm zəmin hazırlamışdır. Təbii ki, bu zəminin möhkəmlənməsində "Ədəbiyyat dərsləri" kitabının da özünəməxsus rolu olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ərəfəsində nəşr olunmuş həmin kitab həm də bu möhtəşəm el bayramına layiqli hədiyyə sayıla bilər.



## MÜNDƏRİCAT


Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....3

2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....6

**İsa HƏBİBBƏYLİ.**
Müstəqil dövlətçiliyin dərki və təntənəsi....7

**Teymur KƏRİMLİ.** Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə töhfə....13

**Gülbəniz BABAXANLI.**
Əhməd Cavadın poema yaradıcılığında rejimlə psixoloji mübarizə....17

**Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ.**
Azərbaycan Xalq Cümhuriyyəti ilkin qaynaqlarda. Cümhuriyyət dövrünün ədəbi konsepsiyası (*M.Ə.Rəsulzadənin ədəbi görüşləri*)....22

**Minaxanım ƏSƏDLİ.**
Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında Yusif Ziya Talıbzadənin rolu....30

**Əzizağa NƏCƏFZADƏ.**
Hürriyyət aşiqi Hüseyn Cavid....39

**Arzu Əhməd HACIYEVA.**
Abdulla Şaiq Cümhuriyyət illərində....44

**Yusif GÜNAYDIN.**
Romantik qəhrəmanlar sosial ədalət axtarışında....55

**Aslan KƏNAN.**
Görkəmli şəxsiyyət....60

**Məlahət MÜRŞÜDLÜ.**
"Şaiq Nümunə Məktəbi"
Cümhuriyyət dönəmi milli təhsil quruculuğunun
intibahı kimi ........................................................................ 69
**Göyərçin MUSTAFAYEVA.**
XX əsr Azərbaycan ədəbiyyatının iki böyük sənətkarı........ 76
**İlahə NOVRUZOVA.**
Hüseyn Cavid yaradıcılığında Türkçülüyün, Cümhuriyyətçiliyin
tərənnümü ........................................................................ 82
**Lalə ƏLİYEVA.**
Cümhuriyyət şairlərinin elmi-pedaqoji yaradıcılığından bir
örnək ........................................................................ 87



**İşçi qrupu:**

***Almaz Kərimli***
***İlahə Novruzova***
***Lalə Əliyeva***
***Aytən Cəfərli***

# "Azərbaycan Xalq Cümhuriyyəti dövründə romantik ədəbiyyat"

*respublika elmi konfransının materialları*

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Yadigar Mirbağırzadə

Çapa imzalanmış 24.12.2018
Şərti çap vərəqi 6. Sifariş № 85
Kağız formatı 60x84 1/16. Tiraj 300 .

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4